# PSİXOLOGİYA JURNALI

*Elmi-praktik jurnal*

*1999-cu ildən nəşr olunur* **2022 №2** *3 ayda bir dəfə nəşr olunur*

## ÜMUMİ PSİXOLOGİYA

***Mütəllimzadə Aytən S.***

Gənc blogerlərin bəzi psixoloji problemlərinin təhlili ................................3

## SOSİAL PSİXOLOGİYA

***Dadaşova Aydan G.***

Gender asimmetriyasının biodeterminist konsepsiyaları ...........................9

## ŞƏXSİYYƏTİN PSİXOLOGİYASI

***Kazımov Pərviz K.***

"Mən" konsepsiyasının inkişaf dinamikası .............................................17

***Nuriyeva Nişan Ç.***

Maskulin və feminist qruplar gender identikliyinin
kateqoriyası kimi .........................................................................................32

***Тейба Халилова Р.***

Правовой нигилизм и правовой инфантилизм
как деформации правосознания ...........................................................39

## HÜQUQ PSİXOLOGİYASI

***Əbilova Narın M.***

Cinsi zorakılıq qurbanlarının psixoloji xarakteristikası ............................44

## TİBBİ PSİXOLOGİYA

***Verdiyeva Nəzrin F.***

Posttravmatik stress pozuntusunun psixoloji məzmununda
emosional intellektin rolu ........................................................................53

UOT 159.96

# GƏNC BLOGERLƏRİN BƏZİ PSİXOLOJİ PROBLEMLƏRİNİN TƏHLİLİ

**Aytən Mütəllimzadə**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küçəsi 33, indeks: AZ 1148*
*E-mail: aytanmutallimzada@bsu.edu.az*

***Açar sözlər:*** *sosial media, sosial şəbəkə, bloq, bloger, "Mən obrazı", özünüqiymətləndirmə, narsissizm, selfi, aqressiya, isteriya, psixotiplər, paranoid, hipertim*
***Keywords:*** *social media, social network, blog, blogger, self-image, self-esteem, narcissism, selfie, aggression, hysteria, psychotypes, paranoid, hypertim*

## GİRİŞ

Bloqlar müasir dünyada o qədər geniş yayılıb ki, bu gün yeni doğulmuş uşaqların və hətta heyvanların da sosial şəbəkələrdə hesabları var. Yeniyetmələr və gənclər blogerləri zəmanəmizin "qəhrəmanları" kimi görürlər. Onların fikri nüfuzlu kimi qiymətləndirilir, reklam məhsulları və tədbirləri üçün çoxlu sayda pul ödənilir. Bunun səbəbi kütləvi şəkildə insanların onları izləməsidir. Ümumiyyətlə, sosial şəbəkə üzvləri digər istifadəçilərlə ayaqlaşmağa, başqalarından "pis olmamağa" çalışırlar. Bu cür səylər bir insanda komplekslərin mövcudluğunu ortaya qoyur. Hazırda gənclər üçün bloqlar istənilən hər bir şeyin saxta görünüşünü yaratmağa kömək edən maneəsiz virtual məkanlardır. Bir qayda olaraq blogerlər üçün bloqlarına qarşı marağın artması, paylaşımlarına çoxlu sayda "bəyənilmə"nin gəlməsi və müsbət şərhlərin olması çox vacibdir. Çox vaxt istifadəçilər xüsusilə də blogerlər onların həyat dəyərlərini əks etdirməyən davranışlarla özlərini virtual cəmiyyətdə təsdiqləməyə çalışırlar.

Psixoloji baxımdan çoxsaylı blogerləri sosial mediaya daha da bağlayan, virtual məkanda özlərini rahat hiss etməklərini təmin edən ümumiləşdirilmiş psixoloji problemlər mövcuddur. Onların bir neçəsinə nəzər salaq:

***1. Özünə inamsızlıq***

Selfi çəkmək və müntəzəm paylaşım etmək özünəinamsızlıqla əlaqədardır (elmi cəhətdən bu selfizmdir). Əvvəllər sosial şəbəkələrin ortaya çıxması ilə insanlar tez-tez şəxsi şəkillərini internetdə yerləşdirməkdən çəkinirdilər, hazırda isə blogerlər (hətta qapalı şəxsi hesabı olan sadə istifadəçilərdə) nə qədər tez-tez fotoşəkil paylaşırlarsa, hesabın aktivliyi də bir o qədər yüksək olur, həmin şəxs bir bloger kimi daha çox uğur qazanmış hesab edilir. Nüfuzlu və ən əsası qazanc əldə etdiyi virtual cəmiyyətdə öz "mükəmməl" həyatlarını insanlara nümayiş etdirən gənclərin əksəriyyəti özünə inamsızlığın səbəb olduğu eqoizmi müalicə etmək əvəzinə bu yolu seçirlər.

***2. Narsissizm***

Narsissistlər dərin uşaqlıq travmaları olan şəxslərdir. Onlar həyatı boyu özlərini tapmaq, kim olduqlarını başa düşmək cəhdindən əziyyət çəkirlər. Bu insanlar onların haqqında cəmiyyətdə formalaşan fikirlərlə öz varlıqlarının təsdiqini tapırlar. Sosial şəbəkələr xüsusilə bloqlar ictimai rəyin qızıl mədənidir. Bir paylaşım edərək insanlar dərhal izləyici kütləsindən reaksiya alırlar – bəyənmə və şərh şəklində. Həyatdakı özünəməxsusluğunun təsdiqindən məhrum olan narsist şəxslər sosial mediaya daxil olurlar – bir yazı yayımlayır və dərhal digər insanlardan cavab alırlar. Belə ki, qısa zamanda onları çoxlu sayda insanlar görür, paylaşımlarını oxuyur və tanıyırlar.

***3. Aqressivlik***

Bloqlar aqressivliyi ifadə etmək üçün münbit bir sahədirlər. Neqativ fikirlər və hərəkətlər burada tamamilə cəzasız da qala bilər, çünki aqressora dərhal müdaxilə edəcək real bir insan mövcud deyildir. Ümumilikdə uğurlu bir bloger olmaq üçün hissləri göstərmək vacibdir. Bu aqressiv davranış, hirs, göz yaşı, qorxu, dəhşət kimi bir sıra mənfi hissləri də əhatə edir. Bir insanın gün ərzində yığılan mənfi hisslərini dilə gətirmə ehtiyacı varsa, ona bağırmaq üçün yanında daha zəif bir adam axtarmasına ehtiyac yoxdur. Yalnız kameranı açmalı və efirdə nə düşündüyünü ifadə etməsi kifayət edir. İzləyicilər dərhal reaksiya verəcəklər – təsdiq edib haqq qazandıracaqlar və ya qəzəblənəcəklər.

***4. İsteriya***

İsterik fərdlərin əsas ehtiyacları tanınmaq olduğu üçün, bloq yazmaq onların ən sevimli peşəsi hesab olunur. Burada istədikləri qədər qəhqəhə çəkə, teatr tamaşaları təşkil edə və istənilən rolu oynaya bilərlər. İsterika şəxs üçün həyat bir teatrdır və

müasir dövrdə bloger olmaqdan daha teatral nə ola bilər? Özünü lentə alıb, kamera qarşısında şou göstərib və rahatlıqla fikirlərini bildirə bilərlər. Bu kimi populyarlıq sikkəsinin digər tərəfi də mövcuddur – isteriya sabun köpüyü kimi böyüməyə meyillidir və zaman keçdikcə izləyicilər də bunu hiss etməyə başlayırlar: sevimli blogerləri artıq kifayət qədər adekvat davranmır. Ancaq isterik bloger özü, öz çatışmazlığını görmür – acgözlüklə məşhurlaşmağından asılı olur və şərhlərdə daha çox təqdir edilmək üçün hər şeyi edir.

***5. Aşağı özünə hörmət***

Özünə hörməti aşağı olan insanlar şəxsiyyətlərarası münasibətlərdən çox əziyyət çəkirlər – uzunmüddətli münasibətlər qurmaları çətindir, çünki qiymətləndirilməyəcəklərinə, başa düşülməyəcəklərinə, dəyər görməyəcəklərinə və insanlar tərəfindən qəbul olunmayacaqlarına inanırlar. Sevilmədikləri zaman utanc və dözülməz ağrı yaşamamaq üçün sevgidən imtina edirlər – çünki mənəvi boşluq hiss edirlər və kiminsə onları sevəcək nəyəsə (mənəvi) sahib olmadıqlarını hiss edirlər. Bu cür insanlar – blogerlər özlərinə çox güvənirlər kimi təəssürat yaradırlar (psixoloji müdafiə mexanizmi). Şəxsi bloqları blogerlərə görə özlərini təsdiqləmə üsuludur və burada özlərini təhlükəsiz hiss etdikləri üçün bu mühitin mükəmməl olduğunu düşünürlər. Özünə hörməti aşağı insanlar çox həssas olurlar, lakin bloqlarında özlərini rahat hiss edirlər – yaralı “Mən”lə ətraflarındakı insanlar arasında bir sərhəd var – dünya şəbəkəsi. Burada kimsə onları birbaşa incidə və alçalda bilməz, əgər belə hal yaşanarsa “sevimli izləyici kütləsi” həmin şəxsi boykot edərlər.

Bunlar blogerlərin psixologiyasının dərinliyinə basdırılan ən ümumi problemlərdir. Üstəlik, populyarlıq artdıqca, bloger davranışında kənaraçıxmalarda sürətlə artır. Rus psixoloqu Anna Moiseva blogerlərin əsas psixotiplərini müəyyən etmişdir:

**1. İsteroid.** Bu tip blogerlər özlərini nümayiş etməyi sevirlər. Bloqlarında əksərən selfilər var, göstərişli gözəl bir həyat, parlaq rənglər, səyahətlər, belə bir insanın çox sayda fotoşəkli, maraqlı hekayələri vardır. Bloqu işlətməkdə əsas məqsədi çox diqqət çəkmək, izləyiciləri heyran etməkdir.

**2. Həyəcanlı.** Bloqunda çiçək şəkilləri, dostları ilə şəkilləri, heyvanlara sevgisini göstərən paylaşımları vardır. Öz şəkilləri çox azdır və ya üzü görünməyən çox aydın görünməyən şəkillərdir. Hər kəs kimi diqqət çəkməmək üçün sadə geyinir. Məqsədi izləyicilərlə ünsiyyət qurmaq və onlara faydalı olmaq, dəstək almaqdır.

**3. Şizoid.** Bloqunda çox sayda qeyri-standart fotoşəkillər vardır. Demək olar ki, bloqunda öz fotoşəkilləri yoxdur və əgər varsa, görünüşünə heç bir əhəmiyyət vermir, bir az da səliqəsiz ola bilər. Məqsədi sadəcə yaradıcılığı ilə izləyicilərində yeni fikirlər yaratmaq və ya bir fikri çatdırmaqdır.

**4. Paranoid.** Bloqunda hər bir şey aydın və qaydalara uyğun olmalıdır. Bloqda əksərən təsdiqlənmiş fotoları vardır, şəkillərdə hər şey qüsursuzdur və səliqəlidir, öz şəkilləri klassik görünür, artıq bir şey yoxdur, təhsil haqqında məlumatları vardır. Məqsədi izləyicilərə nələrisə öyrətmək, eyni zamanda səhv etmədən, qüsursuz şəkildə bunu necə düzgün edəcəyini göstərməkdir.

**5. Qipertim.** Hər zaman böyüməyən bir uşaq kimidirlər, çox enerjili olurlar. Bloqlarında çoxlu sayda yazılı paylaşımları vardır, gün ərzində harada olduqlarını söyləyirlər, tez-tez izləyiciləri zarafat edirlər, əyləncəli postlar paylaşırlar. Məqsədləri insanlarla birlikdə maraqlı vaxt keçirmək, izləyicilərini cansıxıcılıqdan qurtarmaqdır.

Əhatə dairəsi gündən-günə artmaqda olan sosial medianın istifadəsi, istifadə sahələrinin genişlənməsi və gündəlik istifadə nisbətlərinin artması ilə həyatda əvəzolunmaz bir yerə sahib olmaqda davam edir. Bugünkü texnologiyanın sosiallaşma sahəsində bizə təqdim etdiyi ən böyük fürsətlərdən biri də bloqlar və xüsusilə də sosial şəbəkələrdə mövcud olan mikrobloqlardır.

Mikrobloqlar (Twitter, Instagram və s.) hazırda məlumat əldə etmək üçün ilk mənbə kimi istifadə olunur. Ölkənin gündəmi, ümumi mövzular, araşdırmalar, yeni fikirlər, əyləncə, alış-veriş, ünsiyyət qurmaq, əməkdaşlıq etmək və s. sosial medianın həyatımıza verdiyi müsbət qatqılardır.

## NƏTİCƏ

Həyatın bütün sahələrində, zamanımızın çox hissəsini xərclədiyimiz sosial mediadan istifadə müddətinin az olması normal, çox olması isə zərərlidir. Xüsusilə sosial mediadan çox istifadə etmək yeniyetmə və gənclərdə ciddi psixoloji deformasiyaya səbəb olur.

Sosial media yeniyetmələr və gənclərdə texniki bacarıqları artırsa da, sosial bacarıqları, ünsiyyəti azalda bilər və bu sahədə qarşılaşdıqları bir sıra mənfi təsirlər nəticəsində psixoloji travmalar almış ola bilərlər. Əksiklik hissi, başqaları ilə özünü müqayisə etmək və rəqabət hissi özünəinamı aşağı ala bilər və sosial narahatlıq, depressiya kimi psixoloji problemlərə səbəb ola bilir.

Müasir dövrümüzdə yeniyetmə və gənclər blogerlərin nümayiş etdik-

ləri “ideal” həyatı izləməklə, blogerlərdən nümunə almış olurlar və hətta özləri də blogerlik fəaliyyətinə başlamağı planlayırlar.

Valideynlər uşaqlarının bloger olmaq arzusunu normal qarşılayır və onların müasir dövrün tələbləri ilə ayaqlaşmaqlarına mane olmamağa çalışırlar. Lakin hər bir valideyn diqqətli olmalıdır, uşağının bloger olmaq istəyini təşviq etməzdən əvvəl diqqətlə düşünməlidirlər. Bu, peşəkar deformasiyasının hələ tam başa düşülməmiş birmənalı olmayan peşəsidir.

**Ədəbiyyat:**


1. Balabanis G., Chatzopoulou E. Under the influence of a blogger: The role of information–seeking goals and issue involvement. // Publishing Research Quarterly 37. 2021, p. 183-199
2. Sylvester B. Social work and the role of social media best practices. / Presentation: Association of Caribbean Social Work Educators (ACSWE) 11th Biennial Conference Curacao July 8-12, p. 39
3. Tarhan N., Tutqun A.Ü. Sosyal medya psikolojisi. İstanbul, 400 s.
4. Дергачева А. Тренд естественности в социальной сети instagram с позиции блогеров. / Дипломная работа. Москва, 2019, 28 с.
5. Сабий Л.В. Психологические особенности блоггеров. // Ученые записки крымского инженерно-педагогического университета. серия: педагогика, психология. Номер: 3 (5). Симферополь, 2016 с. 114-118
6. https://www.yasantipsikoloji.com/cocuk-ergen/genclerde-sosyal-medya-bagimliligi
7. https://aif.ru/health/psychologic/instagram_golovnogo_mozga_pochemu_blogery_gotovy_na_vse_radi_populyarnosti
8. https://psychology.sredaobuchenia.ru/baza/blog
9. https://www.mind.org.uk/information-support/your-stories/telling-your-story-blogging-or-vlogging-for-mind/
10. https://www.apa.org/monitor/2014/06/blogging
11. https://www.rbc.ru/technology_and_media/07/04/2021/606c18969a79472dc5091c94
12. https://vc.ru/marketing/230667-rossiyskie-blogery-v-instagram-i-youtube-operedili-gazety-po-reklamnoy-vyruchke-v-2020-godu-iab-russia
13. https://www.epa.gov/sites/production/files/2014-03/documents/social-media.pdf
14. https://www.vogue.ru/beauty/kak-rasshifrovat-harakter-cheloveka-po-profilyu-v-instagrame

# ANALYSIS OF SOME PSYCHOLOGICAL PROBLEMS IN YOUNG BLOGGERS

***Ayten Mutallimzade***

**ABSTRACT**

Nowadays, blogs for young people have an unlimited digital space that helps give something a fake look. Microblogs (Twitter, Instagram, etc.) are used today as the main source of information. Country agenda, general topics, research, new ideas, entertainment, shopping, communication, collaboration, etc. the positive contribution of social networks to our lives.

It is very important for bloggers to increase interest in their blog, get a lot of likes and positive comments. In most cases, social media users, especially bloggers, try to prove themselves in a virtual society through behavior that does not reflect their value.

From a psychological point of view, there are common psychological problems that make many bloggers connect more to social media and feel comfortable in a virtual environment.

Nowadays, teenagers and young people look at the "ideal" life that bloggers demonstrate, even take bloggers as examples and plan to start blogging themselves. With their negative aspects, bloggers become false role models for teens and young people.

Məqalə Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №4).

Rəyçi R.H. Qədirova, psixologiya elmləri doktoru, professor.
Məqalə redaksiyaya 17 mart 2022-ci ildə daxil olmuşdur.

UOT: 811.111

# GENDER ASİMMETRİYASININ BİODETERMİNİST KONSEPSİYALARI

***Aydan Dadaşova***

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küçəsi 33, indeks: AZ 1148*
*Email: aydan.dadasova93@mail.ru*

***Açar sözlər:*** *gender asimmetriyası, gender rolları, gender identikliyi, gender stereotipləri, maskulinlik, feminlik.*
***Keywords**: gender asymmetry, gender roles, gender identity, gender stereotypes, masculinity, femininity.*

## GİRİŞ

Cəmiyyətdə gender asimmetriyası anlayışı daima mütəfəkkirlərin diqqətini cəlb edən məsələ olmuşdur. Bu sahədə aparılan tədqiqatları klassik, modernist və postmodernist mərhələlərə bölürlər. Bu tədqiqatlarda gender asimmetriyasının səbəblərini ya bioloji, ya da sosiomədəni konstruksiya ilə əlaqələndirirlər. XVII əsrdən sonra cinslərin sosial fərqliliklərinin əsasında bioloji fərqin dayandığını düşünürdülər. Onlara görə, insanın cinsiyyəti bioloji mənşəlidir və insanın sosial davranışlarının səbəbini, onun fiziobioloji xüsusiyyətlərində axtarmaq lazımdır.

Gender asimmetriyasının təməlində dayanan əsas amillərdən biri, gender tədqiqatlarının sosiomədəni konstruksiya kontekstindən kənara çıxmamasıdır. Gender – sosial cins olmaqla yanaşı, həm də bio-sosiomədəni fenomendir. Bioloji cins (sex) özündə morfoloji (xarici və daxili cinsi orqanlar), genetik (genlərin xüsusi konfiqurasiyaları), beyin qabığı (testosteronun təsiri ilə beynin differensiasiyası), qonad (daxili endokrin vəziləri) cinsiyyəti ehtiva edir. Bunlar fərdin gender davranışlarına təsir göstərirlər. Bu baxımdan, fərdin davranışlarında həm sosial-mədəni, həm də bioloji amillərin paralel şəkildə nəzərə alınması qaçınılmazdır.

Gender tədqiqatlarına qədər (XX əsrin 70-ci illəri) gender asimmetriyasının səbəbi bioloji amillərlə əlaqələndirilirdi. E.Dürkqeym, Z.Freyd, T.Parsons, U.Q.Spenser, Ç.Lombrozo kimi biodetermenist tədqiqatçıların yanaşmaları əsasən bu sahədə klassik mərhələ kimi dəyərləndirilir. Onların

tədqiqatlarının nəticələri bundan ibarətdir ki, qadınların cəmiyyətdə mövcud olan qeyri-bərabər statusu, cəmiyyətin ədalətsiz dəyər və qanunları ilə deyil, onların fiziobioloji təbiətləri, genetik və psixoloji xüsusiyyətləri ilə bağlıdır. Biodetermenist yanaşma klassik bir yanaşma olsa da, onun tərəfdarları müasir günədək öz mövqelərini müdafiə etməyə çalışırlar.

Gender tədqiqatlarının nəzəri-metodoloji əsaslarının fərdi (gender kimliyi), sosial struktur (cinslərin sosial mövqe və statusları) və simvolik (cinslərin tarixi-mədəni rəmzləri) meyarları, gender təhlilində mədəni metafora, biodetermenizm və gender stratifikasiyası yanaşmalarını ortaya qoymuşdur. Onlar, cinslərin sosial rol və statuslarını, biopsixoloji fərqliliklərini, gender rollarını müəyyənləşdirməyə yardım edir [6, 16-17].

Maskulinlik və feminliyi çoxmənalı mürəkkəb kateqoriyalar kimi səciyyələndirən İ.S.Kon, onları təsviri (onlara obyektiv olaraq xas olan davranış və zehni xüsusiyyətlərin birləşməsini ifadə edir), normativ (onları olmalı olduqları ideal, arzu olunan obrazların cəmini ifadə edir) və atributiv (insanların sosial təsəvvürlərində kişilər və qadınların nə olduğu ilə bağlı stereotiplərin cəmini ifadə edir) aspektlərdə izah edir [8,44]. Buna görə, maskulinlik və feminliyə bir çox yanaşmalar mövcuddur: bioloji-təkamül, psixodinamik, post-modernist, sosial-konstruktivist.

Biodetermenist yanaşmanın təməlində psixoanalitik Z.Freyd nəzəriyyəsi dayanır. Z.Freyd, kişinin sosial aktivliyini və qadının sosial passivliyini dəyişilməsi mümkün olmayan anatomik tale kimi səciyyələndirir. O, Edip kompleksindən çıxış edərək məsələni izah etməyə çalışır. Ona görə cinslər öz cinsi mənsubiyyətlərini anladıqları dövrdən (3-4 yaş) bir-birindən fərqli sosial varlıqlar kimi ayrılır və fərqli həyat tərzi keçirirlər. Edip kompleksinə görə, oğul ataya rəqibdir. Övladlar şüuraltı şəkildə belə bir qorxu simptomunun təsiri altında hesab edirlər ki, onların anaları günahkar olduğu üçün öz cinsi mənsubiyyətini kastrasiya cəzasının nəticəsində itirərək qeyri-yaradıcı, passiv, asosial qadın olmuşdur. Bu səbəbdən, qadın bioloji olaraq özünü günahkar, kölə, natamam hesab edir və kişiyə qibtəylə yanaşır. Onun üç yolu qalır: isteriyaya qapılmaq, kişiləşmək və ya "normal qadın olmaq" (mətbəx, uşaqlara qayğı və s.) [14, 383-385].

Psixoanalitik feminizm nümayəndələri Doroti Dinnerstain və Nensi Çodorou gender asimmetriyasının mənşəyinin Edip kompleksində deyil, ona qədərki mərhələdə (3 yaşadək) olduğunu irəli sürürlər [11, 38-39]. Çünki bu mərhələyədək olan

uşaq üçün ana, həyat verən universal varlıqdır. Belə bir varlıqdan ayrılaraq müstəqil sosial subyekt kimi özünü təsdiq etmək iradə tələb edir. Oğlanlar "ana uşağı" asılılığından ayrılaraq təbiəti və qadını özünə tabe etməyə çalışırlar [7, 88-89]. Qızlar isə, anaların təsiri altında olan ailə qurumunun asılılığından azad ola bilmirlər. Bu isə onların ailədən və ailənin başçısı olan kişidən (atası, qardaşı, əri) asılı olmasına, gender asimmetriyasını tənzimləyən yanlış gender müqaviləsinin meydana çıxmasına şərait yaradır [9, 50].

Z.Freydin nəzəriyyəsi ilə marksizmin ailə yanaşmasının sintezi radikal feminizmin ideoloji bazasını təşkil edir. Gender asimmetriyasına biodetermenist yanaşmaların təməlində irqçiliyə səbəb olan sosial darvinizm ideyaları dayanırdı. Bu konsepsiyadan çıxış edən feminist Sulamif Fayerston "bioloji inqilab" ideyasını ortaya qoyur. O, gender asimmetriyasının təməlində dayanan bioloji cinsiyyət amilini marksizmin sinif anlayışı ilə eyniləşdirdi, onun istehsal anlayışını bioloji təkrar istehsal anlayışı ilə əvəz etdi və onun ortadan qaldırılması üçün qadınların bioloji təkrar istehsal maşını kimi fəaliyyətinə son qoyulmasının və ailə qurumunun dağılmasını təklif etdi [1, 183-184]. O, "Cinsiyyət dialektikası: feminist inqilabın problemi" (1970) adlı kitabında yazır: "Bərabərsizliyin əsas səbəbi təbiətdir. Bəşər övladının yarısı (yəni qadınlar) ümumi uşaqları qarnında gəzdirib doyuzdurmalıdırlar. Bu (təbiət qanunu) sonradan kişilərin maraqlarına uyğunlaşdırılaraq qurumlaşdırıldı" [17].

Betti Fridan, Klara Tompson, Alfred Adler, Karen Xorni, Keyt Millet, Culiet Mitçel və digər tədqiqatçılar Freydin fatal biodetermenizmə qarşı çıxaraq qadının passiv və kölə bir varlıq olması fikri ilə razılaşmır və problemin mənşəyini daha çox sosial konstruksiyalarda axtarmağa üstünlük verirlər [10, 22]. Bu cür fərqli yanaşmalar, sonralar gender tədqiqatlarının meydana çıxmasına şərait yaratdı.

Culiet Mitçel hesab edirdi ki, reproduktiv texnologiyalar qadının azad olmasını təmin etmir və qadının köləliyinin əsas səbəbi, qadın və kişilərin şüuraltındakı kastrasiya və Edip komplekslərdir. Ona görə kapitalizmə qarşı yönələn marksist-feminizm ideyaları cəmiyyəti şüuraltı komplekslərdən xilas edə bilməyəcəkdir. Bu baxımdan, o, gender asimmetrasiyasının ortadan qaldırılmasında psixoanalitikanın rolunu önə çəkmişdir [3, 17-18].

ABŞ seksoloqu D.Mani cinsi fərqliliyin əsas mərhələlərini və tərkibini müəyyənləşdirmişdir. Cinslərin cinsi mənsubiyyəti, onların do-

ğulmasından əvvəl xromosom və genetika səviyyəsində fərqli şəkildə proqramlaşdırılır. Erkən qonadlar cinsi differensiasiyaya məruz qalmasa da, H və Y antigenləri erkən qonadları mayalandırır və ondan kişi hormonları (androgen) yaranır ki, onlar da sonralar cinsi özünüdərkə gətirib çıxaran daxili orqanları, xarici genital görünüşləri və cinsi fəaliyyətin beyin mərkəzinin sinirlərini formalaşdırır. Erkən androgenlərin çatışmazlığı, xromosomların xarakterindən asılı olmayaraq avtomatik şəkildə qadın başlanğıcına çevrilir. Erkən hormonlar hipotalamusa (psixo-endokrin cinsi mərkəz orqanı) təsir etməklə, yetkinləşmə dövrünün cinsi hormonlarına təsir edir və onun cinsi mənsubiyyətinin təməlini qoyur [2, 123]. Bu proseslər fərdin doğulmasına və sosial bir varlığa çevrilməsinədək, onun cinsi rol və identikliyinin meydana çıxmasınadək baş verir (şəkil 1).




*Şəkil 1. Cinsi fərqliliyin əsas mərhələləri və tərkibi (D.Mani) [16]*

Fərdin cinsi rol və identikliyinin formalaşmasını yalnız sosial gender amilləri ilə izah etmək yanlışdır. Bu baxımdan, koqnitiv-genetik nəzəriyyələrə əsaslanan özünükateqoriyalaşdırma nəzəriyyəsi daha dərin elmi əsaslara malikdir. Çünki bioloji ontogenetik proseslər sosial proseslərdən daha əvvəl baş verir və daha əvvəl formalaşır. Sosial-mədəni amillərin təsiri nə qədər güclü olsa da, onlar bioloji ontogenetik morfologiyanın üzərində formalaşır və onun təsirindən tam azad ola bilmirlər. Cinsi identikliyin formalaşması amilləri və mexanizmləri ilə bağlı Peterson və Meylorun təqdim etdikləri sxem diqqəti cəlb edir (şəkil 2).




*Şəkil 2. Cinsi identikliyin formalaşması amilləri və mexanizmləri [8, 57]*

Cinsi identiklik prosesi necə baş verir?

İlk cinsi identiklik 1.5 yaşda artıq formalaşır və fərdin özünüdərkinin əsasında dayanır. İnsan sosiallaşma və zəka baxımından inkişaf etdikcə, cinsi özünüdərkin xüsusiyyətləri də dəyişir və bu proses 7 yaşında cinsi ayrılma və cinsi şüurun formalaşması ilə yekunlaşır. Onlar aşağıdakı kimi baş verir:

– 6–8 aylıqda ətrafındakı kişi və qadınlara fərqli reaksiyalar göstərir. Tədqiqatçılar bunun səbəblərini geyim, səs və ya nədən ibarət olduğunu tam şəkildə aydınlaşdırmaqda çətinlik çəkirlər.
– 1.5–2 yaşında öz cinsiyyətini bilir. Lakin özünütəsdiq məsələsində çətinlik çəkir.
– 3–4 yaşında ətrafındakı insanların cinsiyyətlərini (yəni qadın və ya kişi olduqlarını) aydın şəkildə fərqləndirir. O, emosional və şüuraltı şəkildə valideynlərinin və yaxın insanların cinsi rollarını imitasiya edir. Lakin o, cinsiyyəti zahiri əlamətlərinə (geyim, saç düzümü) görə dərk edir (məsələn, düşünür ki, oğlana

qız paltarı geyindirəndə o qız olur). Onlar oğlanın ata, qızın ana olacağını təsəvvür edə bilmirlər. Yəni onlar üçün, cinsiyyət sabit bir bioloji anlayış deyildir. Bu durum, məktəbəqədərki dövrə qədər bu və ya başqa şəkildə davam edir.

– 6–7 yaşında anlayır ki, onun cinsiyyəti dəyişməz bir reallıqdır. Məhz bu dövrdən başlayaraq onun fəaliyyət və münasibətlərində cinsi differensiallaşma prosesi güclənir. Oğlan və qızlar öz həmcinsləri ilə oynayır, maraqları seçilir, fərqli davranış tərzləri və psixoloji xüsusiyyətləri meydana çıxır. Bu dövr, cinsi ayrılmanın və cinsi şüurun formalaşmasının başlanğıcı hesab edilir [15].

– 7–8 yaşında cinsi identikliyin inkişafında valideynlərin və ilk sosial qrupun rolu böyük olur. Cinsi identikliyin inkişafında qızlar analarını təlqin edirsə, oğlanlar atalarını təlqin edirlər. Lakin ailədə atanın olmaması və ya zəif maskulin keyfiyyətlərə malik olması, oğlanların cinsi özünüdərkində müəyyən problemlər yaradır və onların cinsi özünüdərki "xəyali ata" obrazına müvafiq formalaşır.

Yeni doğulan körpənin genital görünüşü, onun sosiomədəni sistemdə (ailə, cəmiyyyət) gender rolları (əmək bölgüsündə, peşə seçimində, davranış və əxlaq normalarında cinsiyyət amili) istiqamətində tərbiyə istiqamətini müəyyənləşdirir. Çünki cinsi differensial davranış prosesi, cinsi identiklikdən əvvəl başlayır. O, sosial təlqinin deyil (freydizmə görə, cinsi identiklik övladların valideynlərini təlqin etməsinin nəticədir), cinsi özünüdərkin nəticəsi kimi yaranır.

## NƏTİCƏ

Nəticə olaraq biz hesab edirik ki, klassik biodetermenist yanaşmalarda, xüsusilə Z.Freydin gender asimmetriyasının səbəbləri ilə bağlı yanaşması yanlışdır. Çünki insanın özünüdərki ilə bağlı ilk "Mən"ini təşkil edən cinsi mənsubiyyəti 1.5 yaşında (daha əvvəl də olması mümkündür) formalaşır və bu yaş dövrü ilə Edip kompleksi arasında əlaqə yoxdur. Doroti Dinnerstain və Nensi Çodorou gender asimmetriyasının mənşəyi ilə bağlı fikirləri isə daha məntiqlidir. Lakin bu tədqiqatlarda birtərəflilik vardır. Gender və cinsi mənsubiyyət məsələsi bir-birinə mürəkkəb ontogenetik biososial, cinsi sosiallaşma və dinamik özünüdərk prosesləri ilə üzvi şəkildə bağlanan bir kateqoriyadır. Bu baxımdan, fərdin davranışlarında həm sosial-mədəni, həm də bioloji amillərin paralel şəkildə nəzərə alınması qaçınılmazdır.

**Ədəbiyyat:**


1. Mirzəzadə R.R. Gender və Feminizm. Bakı, "Adiloğlu" 2002, 267 s.
2. Money J. Love and Love Sickness. The Science of Sex, Gender Difference, and Pair-bonding. Baltimore - London, 1980. – 256 s.
3. Muhittin Ataman. Feminizm: Geleneksel uluslararası ilişkiler teorilerine alternatif yaklaşımlar demeti. Alternatif Politika, cilt 1, №1, 2009. s. 1-41.
4. Kheel M. "Feminizm and Deep Ecology", San Francisco: Sierra Club 1990. – 266 s.
5. Taylor V. Rupp L. "Women's Culture and Lesbian Activism", Feminist Foundations: Toward Transforming Sociology, London: Sage Publications 1998. S. 329-356.
6. Акулич М.М. Левенских И.А. Гендерные роли в классических и постклассических социологических теориях. Вестник ТГУ 2010. №4. S. 14-20.
7. Лортер Дж. Пол как социальная категория. // Основы гендерных исследований. – М., 2000. – 155s.
8. Кон И.С. Мужчина в меняющемся мире. – М.: Время, 2009. – 496 s.
9. Попова Л.В. Некоторые тенденции в ценностных ориентациях девочек и мальчиков младшего подросткового возраста // Женщина в российском обществе. 1996. №4. S. 44-53.
10. Пушкарев Л.Н. Гендерный анализ и его применение к изучению истории культуры.// Отечественная история, 1999. №1. S.19-29.
11. Рябова Т.Б. Гендерные стереотипы и гендерная стереотипизация: методологические подходы // Женщина в российском обществе. 2001. №3/4. - s. 34-43.
12. Теория и методология гендерных исследований. Под общ. ред. О.А.Ворониной. – М.: МЦГИ – МВШСЭН – МФФ, 2001. – 416 s.
13. Ушакин С.А. Пол как идеологический продукт // Человек. 1997. №2. S. 62-75.
14. Фрейд З. Введение в психоанализ: Лекции.- М., -1989. – 633 s.
15. Кон И С. Психология половых различий. http://www.voppsy.ru /issues/1981/812/812047.htm
16. http://www.voppsy.ru/issues/1981/812/812047.htm
17. https://genderlibrary.files.wordpress.f

# BIODETERMINIST CONCEPTS OF GENDER ASYMMETRY

***Aydan Dadashova***

## ABSTRACT

One of the main factors underlying gender asymmetry is that gender studies do not go beyond the context of sociological constructions. Gender is not only a social sex, but also a bio-sociocultural phenomenon. Biological sex includes morphological (external and internal genitalia), genetic (specific configurations of genes), cerebral cortex (brain differentiation by testosterone), wing (endocrine glands). These affect the individual's gender behavior. From this perspective, parallel social and cultural as well as biological factors in individual behavior are inevitable.

Məqalə BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №4).

Rəyçi H.Ə.Əlizadə, pedaqoji elmləri doktoru, professor.

Məqalə redaksiyaya 18 mart 2022-ci ildə daxil olmuşdur.

UOT: 159.99

# "MƏN" KONSEPSİYASININ İNKİŞAF DİNAMİKASI

***Pərviz Kazımov***

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küçəsi 33, indeks: AZ 1148*
*E-mail: parvizkazimov@gmail.com*

***Açar sözlər:*** *"Mən" konsepsiyası, Akademik "Mən" konsepsiyası, Peşəkar "Mən" konsepsiyası, Özünəhörmət, Özünəinam, Koqnitiv komponent, Emosional komponent, Sosial mühit*
***Key word:*** *Self-consept, Academic self-concept, Professsional self-concept, Self-esteem, Self-confidence, Cognitive component, Emotional component, Social environment*

## GİRİŞ

"Mən" konsepsiyası hər bir şəxsin özünün davranışları, bacarıqları, dəyərləri və digər xarakterik cəhətləri barədə inamlarının məcmusudur. Özünütəsnif nəzəriyyəsinin banisi *John Turnerə* görə "Mən" konsepsiyası fərdi və sosial səviyyələrdən ibarətdir. Bir şəxsin özünü qiymətləndirməsi onun özünün və başqalarının onu qavraması ilə əlaqədardır (Guimond, Armand; Martinot, Crisp, Redersdorff, 2006).

*Carl Rogers* "Mən" konsepsiyasının üç hissədən ibarət olduğunu irəli sürürdü. Bu hissələr özünü qiymətləndirmə, özünəhörmət və ideal "Mən"dir (1959). Özünüqiymətləndirmə hər bir şəxsin özü barədə fikirləridir. Buraya fiziki xüsusiyyətlər, xarakter, sosial rollar kimi amillər aid edilə bilər. Bir insanın özü barədə fikirləri bəzən reallığa uyğun olmaya bilər. Belə ki, insanlar bəzən özlərinin müsbət və ya mənfi cəhətlərini təhrif edə bilərlər. Özünəhörmət bir şəxsin özünü başqaları ilə müqayisəsi və ya onlardan aldığı rəylər və reaksiyalar əsasında formalaşır. İdeal "Mən" bizim arzu etdiyimiz və ya olmaq istədiyimiz obrazımızdır. Bu, bizim real "Mən"imizdən daha güclü və yüksəkdədir.

Bruce A.Bracken (1996) "Mən" konsepsiyasının aşağıdakı altı xüsusi sahə ilə əlaqədar formalaşdığını irəli sürüb:

– Akademik: təhsil prosesindəki nailiyyətlər;
– Affektiv: emosional şüurluluq;
– Səriştə: əsas tələbatları ödəmək bacarığı;
– Ailə: ailə çərçivəsində göstərilən fəaliyyət;
– Fiziki: sağlamlıq, fiziki vəziyyət və ümumi görünüşlə əlaqədar hisslər;
– Sosial: başqaları ilə qarşılıqlı əlaqə qurma qabiliyyəti.

*R.Burnsün* nəzəriyyəsinə görə "Mən" konsepsiyası şəxsin özünə yönəlmiş münasibətlərinin məcmusudur və onun strukturu koqnitiv ("Mən" obrazı), emosional (özünüqiymətləndirmə) və davranış komponentlərindən ibarətdir. Bu komponentlərin də hər biri öz növbəsində real "Mən" – şəxsin real qabiliyyətləri, rolları və statusuna münasibəti, sosial "Mən" – şəxsin başqalarının onun barəsindəki fikirlərinə münasibəti və ideal "Mən" – şəxsin öz ideal "Məni" ilə əlaqədar təsəvvürlərinə münasibətlərindən ibarətdir (Белинская, Тихомандрицкая, 2009).

Uşaq yaşlarda insanın "Mən" konsepsiyası əsasən sosial mühitin təsiri ilə formalaşır. Başqalarının rəyi və münasibəti bu mərhələdə mühüm əhəmiyyətə malikdir. Lakin insan yaşa dolduqca özü və dünya barədə özünün müstəqil fikirlərini formalaşdırır. Bu fikirlər də çox vaxt uşaq, gənc və ya daha təcrübəsiz yaşlarda sosial mühitin təsiri ilə formalaşmış fikir, emosiya və münasibətlərə əsaslanır. Dolayısıyla insanın qeyri-sağlam sosial mühitdə yetişməsi, neqativ emosiyalar və ya davranış modellərinin təsirinə məruz qalması, yanlış rol modelləri mənimsəməsi onun "Mən" konsepsiyasının və dolayısıyla sosial mühitlə münasibətlərinin qüsurlu inkişafına səbəb olur. Formalaşmış qüsurlu "Mən" konsepsiyasının mütərəqqi korreksiyası insanın səmərəli fəaliyyəti və qarşılıqlı münasibətlər qurması üçün zəruridir. Bunun üçünsə refleksiya və özünütəhlil bacarığı mühüm əhəmiyyət kəsb edir. Bu məqalədə elmi ədəbiyyatın təhlili əsasında "Mən" konsepsiyası, onun müxtəlif formaları və onların formalaşma və inkişaf dinamikasını nəzərdən keçirəcəyik.

**"Mən" konsepsiyasının müxtəlif formaları və inkişaf dinamikası**

Bəzi tədqiqatçıların fikrincə, 2 yaşa qədər uşaqlar özlərinin daxili "Mən" duyğusuna uyğun tərcihlərini formalaşdırır. Bu vaxt pozitiv mənlik şüurunun formalaşması üçün sevgiyə əsaslanan münasibətlər vacibdir. 3–4 yaşlarda uşaqlar özlərini digərlərindən fərqli fərd kimi dərk etməyə başlayırlar. 5-6 yaşlarında isə onlar artıq

özlərini daha böyük qrupun üzvü kimi dərk etməyə, qrupun ehtiyac və maraqlarını anlamağa başlayır. Bu mərhələdə uşaq bağçası əhəmiyyətli rol oynayır. Belə ki, uşaq bağçasında uşaqlar öz təməl ehtiyaclarından daha geniş mövzuları əhatə edən dil və söz ethiyatı formalaşdırır (Miller, Church, & Poole, n.d.). *Laura Berkə* görə uşaqlarda sosial "Mən" duyğusu təxminən 7–11 yaşlarında formalaşır. Bu mərhələdə onlar sosial qruplara istinad edir, sosial müqayisələr aparır və başqalarının onlara münasibəti barədə düşünməyə başlayır, özlərinin real və ideal "Mən"lərini formalaşdırırlar (Berk, 2004). 12-18 yaş arasında yeniyetmələr özlərini fəal şəkildə başqaları ilə müqayisə edir, özləri ilə eksperimentlər edir və "Mən" konsepsiyasının əsasını formalaşdırırlar. Bu yaşlarda beyində kimyəvi dəyişikliklər baş verir, yeniyetmələr daha geniş mənada özlərini dərk etməyə başlayırlar və onlar həmyaşıdlarının təsirinə qarşı həssas olurlar (Sebastian, Burnett, & Blakemore, 2008). Bu vaxt onlar daha geniş sərbəstlik əldə edir, özlərini həmyaşıdları ilə müqayisə edir və rəqabət aparır və başqalarının fikirlərinə əhəmiyyət verirlər. Bu yaşlarda arzu etdikləri sahədə uğur qazanmaq və əhəmiyyətli hesab etdikləri insanların rəğbətini qazanmaq "Mən" konsepsiyasına ciddi təsir edir (Manning, 2007). "Mən" konsepsiyasının inkişaf mərhələləri insanın fərd olaraq inkişafı ilə üst-üstə düşür. *Donald Superə* görə insanın fərdi və peşəkar inkişafı beş əsas mərhələdən ibarətdir:

1. Böyümə (0 ilə 14 yaş arası) mərhələsində insanın təməl mənlik şüuru formalaşır.

2. Araşdırma/axtarış (15 ilə 24 yaş arası) mərhələsində bacarıqlı fərdlər yeni siniflər, təcrübələr və iş yerlərini sınayır və eksperimentlər edir.

3. Formalaşma (25 yaşdan 44 yaşa qədər) mərhələsində fərdlər ilk peşəkar addımlardan başlayaraq karyera qurur və öz bacarıqlarını inkişaf etdirir.

4. Təşəkkül (45 yaşdan 64 yaşa qədər) mərhələsi fərdlərin davamlı olaraq öz "Mən" konsepsiyasını və karyerasını idarə etməsi və onlara uyğunlaşması ilə xarakterizə olunur.

5. Tənəzzül (65 yaşdan yuxarı) mərhələsi məhsuldarlığın azalması və təqaüdə hazırlıqla xarakterizə olunur ki, bu da fərdin "Mən" konsepsiyasına güclü təsir edə bilər (Super, Starishevsky, Matlin, & Jordaan, 1963).

"Mən" konsepsiyası sabit bir fenomen olmayıb, təcrübə nəticəsində dəyişir. Bu dəyişiklik həm müsbət, həm də mənfi xarakterli ola bilər. Araşdırmalar göstərir ki, yaş, gender, din və digər sosial-ictimai amillər

“Mən” konsepsiyasının formalaşmasına təsir edir. “Mən” konsepsiyası özünəhörmət və özünəinam kimi affektiv amillərlə sıx qarşılıqlı əlaqəyə malikdir. Qeyd olunanlar “Mən” konsepsiyasının emosional komponentini təşkil edir. Emosional komponent koqnitiv komponentlə daim qarşılıqlı əlaqədədir. Belə ki, özünəinam və özünəhörmət kimi emosional amillər bir tərəfdən müəyyən koqnitiv prosesləri şərtləndirirsə, digər tərəfdən onların təsirinə məruz qala bilər. Məsələn, özünəinamı aşağı olan insan bəlli bir işin öhdəsindən gələ bilməyəcəyinə inana və bununla əlaqədar arqumentlər formalaşdıra bilər. Digər tərəfdən isə insan bir işin görülməsi üçün zəruri keyfiyyətlərə malik olmadığı barədə məntiqi qənaətə gələrsə, bu onda həmin işin əhəmiyyətli olduğu sosial (peşəkar, akademik) mühitdə özünü inamsız hiss etməsinə səbəb ola bilər.

Valideynlərin uşaqla və bir-biri ilə rəftarı, onların dünyagörüşü, intellektual səviyyəsi, uşağa aşıladıqları bacarıq, dəyər və davranış modelləri, daha sonra isə bağçada və məktəbdə müəllimlərdən və həmyaşıdlarından aldığı əks-əlaqələr, müşahidə etdiyi reaksiyalar, münasibətlər uşaqların “Mən” konsepsiyasının formalaşmasına təsir edən ən mühüm amillərdir. Bəzi tədqiqatlara əsasən uşaqlarda “Mən” konsepsiyasının formlaşması baxımından valideynlər arasında ünsiyyətin keyfiyyəti ailənin strukturundan belə daha vacibdir. Belə ki, tədqiqatlar göstərir ki, həm tam, həm də boşanmış ailələrdə valideynlərin bir-biri ilə və uşaqlarla keyfiyyətli ünsiyyət saxlaması uşaqlarda müsbət “Mən” konsepsiyasının formalaşmasına səbəb olur (Kanoy, 1980). Ailədəki sosial-psixoloji mühitin ikinci sinif şagirdlərinin məktəbdəki nailiyyətlərinə və “Mən” konsepsiyasına təsiri Dennis Revickinin (1981) həyata keçirdiyi tədqiqatda da sübut olunub. Başqa bir tədqiqatda ailə mühitində qoruyucu, uyğunluq, mükafat və bəslənmə komponentlərinin yeniyetmələrin “Mən” konsepsiyası ilə əhəmiyyətli dərəcədə müsbət əlaqəsi, sosial təcrid, imtiyazlardan məhrumetmə və rədd komponentlərinin isə mənfi əlaqəsi müəyyən olunub (Kaur, Rana & Kaur, 2009).

Valideynlərin təhsil səviyyəsi və sosial iqtisadi statusu uşaqların “Mən” konsepsiyasının formalaşmasına dolayı yolla təsir edir. 8–12 yaşlı uşaqları əhatə edən araşdırmanın nəticələrinə əsasən qeyd olunan amillər valideynlərin inamlarına, davranışlarına, onlar isə öz növbəsində uşaqların akademik nailiyyətlərinə təsir edir (Davis-Kean, 2005). İranda həyata keçirilən bir araşdırmada 5-6 yaşlı uşaqların özünəhörməti ilə valideynlərin təhsil səviyyəsi

arasında əhəmiyyətli əlaqə olmadığı müəyyən olunub (Soltani, Leila, Mirshahjaafari & Arbabisarjou, 2013). Ümumiyyətlə, özünəhörmət bir psixoloji fenomen kimi kifayət qədər ziddiyyətli xarakterə malikdir və daha dərindən təhlil olunmalıdır. Belə ki, sağlam mühitdə formalaşan özünəhörmətlə, qeyri-sağlam mühitdə formalaşan narsistik özünüşişirtməni fərqləndirmək lazımdır. Narsistik özünüqiymətləndirməyə malik insanlarda bir tərəfdən yüksək özünəgüvən, aşağı narahatlıq hissi və sosial qiymətləndirmə (Akehurst, & Hudson, 2010), digər tərəfdən isə açıq aqressiya və qanun pozuntularına meyillilik (Lau, Marsee, Kunimatsu & Fassnacht, 2011) müşahidə olunur. Hər hansı fəaliyyət (o cümlədən peşəkar və akademik) onlar üçün bir növ özünütəsdiq sahəsidir və bu, bir sıra neqativ hallara səbəb ola bilər. Digər tərəfdən, təhsil səviyyəsi aşağı olan ailələrdə də müsbət qarşılıqlı münasibətlər uşaqlarda sağlam özünəhörmətin formalaşmasına səbəb ola bilər.

İnsanların "Mən" konsepsiyasının formalaşmasına təsir edən mühüm amillərdən biri də xarici görünüşdür. Belə ki, xarici görünüş həm başqalarının şəxsə münasibətinin müşahidə olunması, həm də özünün digərləri ilə müqayisəsi vasitəsilə onun özünə münasibətinə təsir edir. Almaniyada 2950 orta məktəb tələbəsi arasında keçirilən sorğunun nəticələrinə əsasən "Mən" konspesiyasının xarici görünüş aspekti tələbələrin özünəhörmətinə təsir baxımından akademik uğur və sosial aspektləri ciddi şəkildə üstələyir (Baudson, Weber & Freund, 2016). İnsanların aydın "Mən" konsepsiyasının olmaması onların xarici görünüşün əhəmiyyətini şişirtməsinə və xarici görünüşə əsaslanan sosial müqayisələr aparmasına səbəb ola bilər. Xanımların özlərini xarici görkəmləri ilə eyniləşdirməsi və ya xarici görkəm modelini mənimsəməsi onların öz bədənlərindən qeyri-məmnunluğuna səbəb olur (Vartanian & Dey, 2013). Çəkisi yüksək olan 5 yaşlı qız uşaqlarının arıq olan həmyaşıdlarına nisbətən öz bədənlərindən daha az məmnun olduğu və öz zehni qabiliyyətlərinin daha aşağı olduğunu düşündükləri müəyyən olunub. Bu yaşlarda valideynlərin uşaqlarının çəkisindən asılı olmayaraq onların yemək yemələrinə məhdudiyyət qoymaları uşaqların fiziki və zehni qabiliyyətlərinin aşağı olmasını düşünmələri ilə izah olunur, bu isə öz növbəsində uşaqların özlərinə verdiyi qiyməti aşağı salır (Davison & Birch, 2001).

"Mən" konsepsiyasının inkişaf dinamikasından bəhs edərkən yaş və cinsiyyət kimi amillər də nəzərə

alınmalıdır. Konsepsiyasına 12266 nəfərlə keçirilən sorğunun nəticəsinə əsasən "Mən" konsepsiyası erkən yeniyetməliklə orta yeniyetmə yaş arasındakı müddətdə aşağı düşür, erkən yetkinlik yaşından başlayaraq isə yüksəlməyə başlayır (Marsh, 1989).

İnsanlar yaşa dolduqca "Mən" obrazlarının sayı azalır, xüsusiyyətləri isə daha konkret xarakter almağa başlayır (Gibson, 2003). *Marshın* qeyd olunan araşdırmasının nəticələrinə əsasən, gender fəqləri cəmiyyətdəki cinsi stereotiplərlə uyğunluq təşkil edir. 300 empirik araşdırmanın nəticələrinin meta-analizinə əsasən yetkin yaşına çatmış kişilərlə müqayisədə qadınların "Mən" konsepsiyası daha neqativ və subyektiv rifah duyğusu isə daha aşağıdır. Bu müqayisədən sağlamlıq və sosial iqtisadi amilləri statistik olaraq ayırdıqda gender fərqi azalır (Pinquart & Sörensen, 2001). Bu isə o deməkdir ki, qeyd olunan amillər qadınların "Mən" konsepsiyasına və rifah duyğusuna təsir edir.

*Chenin* rəhbərlik etdiyi müəlliflər qrupu elmi ədəbiyyatın təhlili əsasında "Mən" konsepsiyası ilə akademik nailiyyətlər arasındakı əlaqənin üç əsas model – bacarıq inkişaf modeli, özünü inkişaf modeli və qarşılıqlı təsir modeli ilə izah olunduğunu irəli sürürlər. Bacarıq inkişaf modelinə əsasən tələbələrin "Mən" konsepsiyası akademik nəticələrin təsiri ilə formalaşır, özünüinkişaf modelinə əsasən, əksinə, "Mən" konsepsiyası akadmeik nailiyyətlərə təsir edir, qarşılıqlı təsir modelinə əsasən isə "Mən" konsepsiyası ilə akademik nailiyyətlər bir-birinə qarşılıqlı təsir edir (Chen, Chen, Hu & Wang, 2013).

Riyaziyyat fənnindən şagirdlərin aldığı qiymətlər riyaziyyat üzrə "Mən" konsepsiyası ilə müsbət, ana dili üzrə "Mən" konsepsiyası ilə isə mənfi korrelyasiyaya malikdir. Eyni zamanda, riyaziyyat üzrə "Mən" konsepsiyası gələcəkdə bu fənn üzrə qiymətləri proqnozlaşdırıcı xarakterə malik olmaqla yanaşı, həm də bu qiymətlərlə proqnozlaşdırıla bilir (Marsh, Pekrun, Murayama, Arens, Parker, Guo, Dicke, 2018). Eyni tədqiqata əsasən riyaziyyat üzrə "Mən" konsepsiyası riyaziyyat və ana dili üzrə ibtidai məktəb qiymətləri, orta təhsildən öncəki nailiyyətlər, orta təhsilin ilk ilindəki riyaziyyat testi üzrə nəticələrdən ibarət orta göstərici ilə mənfi əlaqəyə malikdir. Bu nəticə kiçik göldə böyük balıq effekti ilə izah edilə bilər. Herbert W. Marsh və John W. Parker tərəfindən irəli sürülmüş bu modelə əsasən fərdlər özlərini həmyaşıdları və bacarıqları özlərinə yaxın olan şəxslərlə müqayisə edirlər. Bunun nəticəsində

nisbətən aşağı bacarıqlı qruplarda olan şəxslər yüksək bacarıqlı qruplarda olanlara nisbətən özləri barədə daha yüksək fikirdə ola bilərlər (Marsh & Parker, 1984). Bundan əlavə, hər bir şagirdin özü ilə daxili dialoqu da müəllimlərin verdiyi əks əlaqənin "Mən" konsepsiyasına təsiri baxımından əhəmiyyətlidir (Burnett, 2003).

"Mən" konsepsiyası ilə akademik nailiyyətlər arasında əlaqə olmadığı hallar da mümkündür. Anne Jordan və Paula Stanovich (2010) inklüziv ibtidai siniflərdə dərs deyən müəllimlərinin inamlarının uşaqların nailiyyətlərinə və "Mən" konsepsiyasına təsirini müəyyənləşdirmək üçün həyata keçirdikləri tədqiqatda müəyyən ediblər ki, xüsusi ehtiyacları olan və ya risk qrupundakı uşaqların öyrənmə çətinliklərini onların təbii və dəyişməz xüsusiyyətləri ilə əlaqələndirən və müəllimin vəzifə çərçivəsindən kənara çıxdığına inanan müəllimlər bu uşaqlarla normal öyrənmə qabiliyyətinə malik uşaqlara nisbətən daha az və daha aşağı zehni səviyyədə ünsiyyət qururlar. Özlərini bütün uşaqların nailiyyətləri üçün cavabdeh hiss edən müəllimlər isə əksinə bütün uşaqlarla daha sıx və yüksək zehni səviyyədə ünsiyyət qururlar. Hər iki tip müəllimlərin siniflərində xüsusi ehtiyacları olan və risk qrupuna aid uşaqların nəticələri aşağı olsa da, məsuliyyət duyğusu yüksək müəllimlərin siniflərində bütün uşaqların "Mən" konsepsiyasının daha yüksək olduğu müəyyən olunub. Bu halda deyə bilərik ki, akademik nailiyyətlərin "Mən" konsepsiyasına təsiri bir tərəfdən nailiyyətdən alınan daxili məmnuniyyət duyğusu ilə əlaqədardırsa, digər tərəfdən ətrafdan, sosial avtoritetlərdən (məsələn, müəllimdən) gələn rəy və reaksiyalarla əlaqədardır. Əgər ikinci amil birinci olmadığı halda da təmin olunursa, bu "Mən" konsepsiyasına müsbət təsir edə bilər.

Akademik "Mən" konsepsiyası ilə akademik nailiyyətlərin qarşılıqlı təsiri üzrə aparılan tədqiqatların meta-analizi göstərir ki, öncə formalaşmış akademik "Mən" konsepsiyası akademik nailiyyətlərə birbaşa və dolayı təsir edir, "Mən" konsepsiyasının özünəhörmət və digər qeyri-akademik komponentlərinin təsiri isə o qədər də əhəmiyyətli deyil (Marsh & Martin, 2011). Buradan belə nəticə çıxartmaq olar ki, qeyri-akademik amillərin (məsələn, uşaq yaxşı futbol oynayır, və ya ailəsi onu səbəbsiz tərifləyir) təsiri ilə formalaşan özünəhörmət akademik fəaliyyətə o qədər də təsir göstərmir.

6–7-ci siniflərdə riyazi qabiliyyətlərlə əlaqədar "Mən" konsepsiyası ilə zövq duyğusu arasında müsbət, təlaş duyğusu arasında isə mənfi qar-

şılıqlı əlaqə olduğu, eləcə də riyazi qabiliyyətlərlə əlaqədar aşağı "Mən" konsepsiyasının bu fənlə bağlı yüksək darıxdırıcılığı proqnozlaşdırdığı müəyyən olunub. Maraqlıdır ki, ana dili qabiliyyətləri üzrə "Mən" konsepsiyası ilə bu fənn üzrə nailiyyət emosiyaları bir-birini proqnozlaşdırmır. Nəticələr nailiyyət duyğularının yeniyetmələrin riyazi qabiliyyətlərlə əlaqədar "Mən" konsepsiyalarının mənbəyi və nəticəsi kimi çıxış etdiyini göstərir (Clem, Hirvonen Aunola, Kiuru, 2021). *G.Lee* və *S.D.Simpkinsin* (2021) 11-ci sinif şagirdləri ilə həyata keçirdiyi tədqiqatın nəticələrinə əsasən riyaziyyat müəllimlərinin uşaqlara dəstəyinin zəif olduğu hallarda valideynlərin uşaqlara dəstəyi tarazlaşdırıcı təsir göstərir və uşaqların bu fənn üzrə bacarıqları barədə fikirlərinə ("Mən" konsepsiyasına) və nailiyyətlərinə müsbət təsir göstərir. Belə ki, yüksək "Mən" konsepsiyasına və ya valideyn dəstəyinə malik uşaqlar müəllimlərdən kifayət qədər dəstək almadıqda belə nailiyyət qazana bilirlər.

*Regina Sticker* və həmkarları keçirdikləri tədqiqat zamanı erkən yaşlarda formalaşan mənəvi "Mən" konsepsiyasının strukturunu və onunla əlaqədar sosial davranışları müəyyən etməyə çalışıblar. Müəlliflər iddia edirlər ki, "Mən" konsepsiyasının mənəvi aspekti onun digər aspektlərindən müstəqil şəkildə funksiya göstərir və kömək etmək, paylaşmaq və təsəlli vermək kimi prososial davranışlar orada təmsil olunub (Sticker, Christner, Pletti & Paulus, 2021).

Uğurlu karyera seçimində ən vacib amillərdən biri şəxsin özünü yaxşı dərk etməsi ilə yanaşı karyera barədə məlumatlılıq, eləcə də öz bacarıq və xüsusiyyətlərinin bu karyeraya uyğunluğunu müəyyən etmək qabiliyyətidir. Bəzi tədqiqatlar göstərir ki, "Mən" konsepsiyası və karyera şüurluluğu arasında əhəmiyyətli müsbət əlaqə var və yüksək "Mən" konsepsiyasına və ya müsbət dünyagörüşünə malik tələbələrin karyera şüurluluğu da yüksək olur (Rohany & Lee, 2012). Bir sıra hallarda insanlar öz maraq və bacarıqlarının fərqində olmurlar və bu onların sadəcə proseslərin axışına düşərək və ya ətrafdakıların təlqinləri ilə özünə uyğun olmayan ixtisas və ya karyera seçməsinə səbəb ola bilir.

Valideynlərin elmi-texniki sahədə çalışması və ya bu sahədə əvvəlcədən digər növ təcrübə və məlumatlılığın olması uşaqların elmi-texniki bacarıqları ilə əlaqədar "Mən" konsepsiyasına və karyera seçiminə (Regan & DeWitt 2015; Wang & Degol 2013), yeniyetmə yaşlarda texniki sahədə praktiki təcrübə qazanmaq isə uşaqların bu istiqamətə marağına, zövq duyğusuna və öz

bacarıqları ilə əlaqədar məktəbdəki dərslər əsasında formalaşdırdığı sabit "Mən" konsepsiyasını aşmasına (Smit, Robin & De Toffol, 2021) müsbət təsir edir.

Peşəkar "Mən" konsepsiyası ümumi "Mən" konsepsiyasına daxil olub, insanın bilavasitə peşəkar bacarıqları və özünə olan peşəkar tələbat anlayışı və ya duyğusu əsasında formalaşır. Peşəkar "Mən" konsepsiyanın uğurlu karyera fəaliyyəti ilə əlaqəsi bir sıra tədqiqatlar vasitəsilə müəyyən olunub. Müəllimlərin "Mən" konsepsiyası, o cümlədən fərdi və peşəkar səriştəlilik duyğusu və işindən məmnuniyyət duyğusu onların iş prosesində stress və yorğunluğa qarşı dayanıqlılığına kömək olur (Friedman & Farber, 1992). Eyni araşdırmaya əsasən müəllimlərin yaşı artdıqca onların fərdi səriştəlilik duyğusu da güclənir. *Gibsonun* (2003) fikrincə karyera ərzində insanlar müsbət/mənfi, qlobal/spesifik, yaxın/uzaq və rəhbər/tabelik meyarları əsasında rol-modellər formalaşdırır və bütün karyera boyu onları izləmək tendensiyası davam edir. Karyeranın başlanğıcında insanlar əsasən müsbət, yaxın və müxtəlif xüsusiyyətlərin daşıyıcısı olan rol modellər yaradır. Karyeranın orta və son mərhələsində isə insanların özünəinamı artdıqca onlar öz rol modellərində daha çox mənfi xüsusiyyətlər müşahidə edirlər və onlara tənqidi yanaşırlar. Təbii ki, qeyd olunanlar insanın özünü daim başqaları ilə müqayisədə qiymətləndirmək ehtiyacından irəli gəlir. Peşəkar fəaliyyətin ortalarında insanlar öz "Mən" konsepsiyasını saflaşdırmağa, sonlarında isə onu gücləndirməyə və təsdiq etməyə çalışır. Mentorluq, həmkar şəbəkələri, fərdi intizam və müstəqillik formalaşdırmalarına dəstək və praktiki təcrübə (Kadushin, 1969; Creech, Papageorgi, Duffy, Morton, Haddon, Potter, De bezenac, ..., 2008) musiqi təhsili alan tələbələrin tələbəlik anlayışından peşəkar "Mən" konsepsiyasına keçmələrini asanlaşdırır. Tələbəlik müddətində müsbət dəyər və inamlardan ibarət peşəkar "Mən" konsepsiyasının tədris prosesinə daxil edilməsi məzun olduqdan sonra tibb bacılarının peşəkar fəaliyyətinə müsbət təsir edir (Jahanbin, Badiyepeyma, Ghodsbin, Sharif, Keshavarzi, 2012).

## NƏTİCƏ

Ədəbiyyat təhlili əsasında deyə bilərik ki, "Mən" konsepsiyası interaksionist təbiətə malikdir – bir tərəfdən insanın mühitə münasibətini şərtlərndirirsə, digər tərəfdən mühitin təsiri ilə formalaşır və təkmilləşir. Uşaq yaşlarında mühitin təsiri ilkin xarakter daşıyır və əsasən emosiyalar və assosiativ obrazlar vasitəsilə "Mən" konsepsiyasının formalaşmasına təsir

edir. Bu mərhələdə emosional komponet özünəmünasibətin və dolayısıyla "Mən" anlayışının formalaşmasında aparıcı rol oynayır və koqnitiv komponentin formalaşmasına ciddi təsir edir. Sabit müsbət emosional mühit və pedaqoji baxımdan düzgün münasibət və davranışlar uşaqda sağlam koqnitiv və davranış komponentlərinin formalaşmasını şərtləndirir. Erkən məktəb yaşlarında emosional dəstək əhəmiyyətini qorumaqla daha mürəkkəb sosial münasibətlər və zehni fəaliyyət koqnitiv komponentin formalaşmasını sürətləndirir. Orta təhsilin son mərhələləri akademik "Mən" konsepsiyasının ön plana çıxması ilə əlamətdardır. Ali və peşə təhsili akademik "Mən" in peşəkar "Mən"ə transformasiyasına start verir. Əməkdə bazarına daxil olan şəxs öz bacarıq və qabiliyyətlərini daha real zəmində, konkret sosial, o cümlədən peşəkar məqsədlərə çatmaq baxımında sınaqdan çıxarır, arzu və istəklərini praktiki baxımdan təhlil edir ki, bu da koqnitiv komponentin tədricən aparıcı mövqeyə keçməsi deməkdir. Karyera müddətində peşəkar "Mən" konsepsiyası spesifik dominant konstrukt kimi çıxış edir, karyeranın axışından asılı olaraq davamlı dəyişə və ya güclənə bilər. Xüsusən özünütəhlil, refleksiya bacarıqlarının inkişaf etməsi ilə koqnitiv komponentin güclənməsi, emosiyalar idarə etmə bacarığının güclənməsi mühitin təsirinin azalmasına və "Mən" konsepsiyasının aydınlaşmasına səbəb olur. Qeyd olunanlardan belə bir nəticə çıxarda bilərik ki, müəyyən bir mərhələyə qədər müsbət mühit, emosional dəstək və konstruktiv əks-əlaqələr, reaksiyalar şəxsiyyətin sağlam "Mən" konsepsiyası formalaşdırması, dolayısıyla cəmiyyətə münasibətdə sağlam, konstruktiv mövqe tutması və səmərəli fəaliyyətlərlə məşğul olması üçün mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Akehurst, Sally & Hudson, Joanne. (2010). Narcissism, social anxiety and self-presentation in exercise. Personality and Individual Differences. 49. 10.1016/j.paid. 2010.03.021.
2. Baudson, T.G., Weber, K.E., & Freund, P.A. (2016). More Than Only Skin Deep: Appearance Self-Concept Predicts Most of Secondary School Students' Self-Esteem. Frontiers in psychology, 7, 1568. https://doi.org/10.3389/fpsyg. 2016.01568
3. Berk L.E. (2004). Development through the lifespan. Boston, MA: Allyn & Bacon.

4. Bracken B.A. (1996). Handbook of Self-Concept: Developmental, Social, and Clinical Considerations. New York: John Wiley & Sons.
5. Burnett, P. (2003). The Impact of Teacher Feedback on Student Self-talk and Self-concept in Reading and Mathematics. The Journal of Classroom Interaction, 38(1), 11-16. Retrieved March 27, 2021, from http://www.jstor.org/stable/23874243
6. Chen, Chin-Tsu & Chen, Chun-Fu & Hu, Jin-Li & Wang, Cheng-Cai. (2013). A Study on the Influence of Self-concept, Social Support and Academic Achievement on Occupational Choice Intention. The Asia-Pacific Education Researcher. 24. 10.1007/s40299-013-0153-2.
7. Creech, Andrea & Papageorgi, Ioulia & Duffy, Celia & Morton, Frances & Haddon, Elizabeth & Potter, John & De bezenac, Christophe & Whyton, Tony & Himonides, Evangelos & Welch, Graham. (2008). From music student to professional: The process of transition. British Journal of Music Education. 25. 315 - 331. 10.1017/S0265051708008127.
8. Davison, K. K. & Birch, L. L. (2001). Weight Status, Parent Reaction, and Self-Concept in Five-Year-Old Girls. Pediatrics, January, 107 (1) 46-53; DOI: https://doi.org/10.1542/peds.107.1.46
9. Davis-Kean, Pamela. (2005). The Influence of Parent Education and Family Income on Child Achievement: The Indirect Role of Parental Expectations and the Home Environment. Journal of family psychology : JFP: journal of the Division of Family Psychology of the American Psychological Association (Division 43). 19. 294-304. 10.1037/0893-3200.19.2.294.
10. Friedman, Isaac & Farber, Barry. (1992). Professional Self-Concept as a Predictor of Teacher Burnout. The Journal of Educational Research. 86. 28-35. 10.1080/00220671.1992.9941824.
11. Gibson, Donald. (2003). Developing the Professional Self-Concept: Role Model Construals in Early, Middle, and Late Career Stages. Organization Science - ORGAN SCI. 14. 591-610. 10.1287/orsc.14.5.591.16767.
12. Guimond, S., Chatard, A., Martinot, D.; Crisp, Richard J., Redersdorff, S. (2006). “Social comparison, self-stereotyping, and gender differences in self-construals”. Journal of Personality and Social Psychology, 90 (2): 221–242. doi:10.1037/0022-

3514.90.2.221. ISSN 1939-1315. PMID 16536648.

13. Jahanbin I, Badiyepeyma Z, Ghodsbin F, Sharif F, Keshavarzi S. (2012). The impact of teaching professional selfconcept on clinical performance perception in nursing students. Life Sci J, 9(4):653-659] (ISSN: 1097- 8135). http://www.lifesciencesite.com. 100
14. Jordan, Anne & Stanovich, Paula. (2010). Patterns of Teacher-Student Interaction in Inclusive Elementary Classrooms and Correlates with Student Self-Concept. International Journal of Disability, Development and Education, 48:1, 33-52, DOI: 10.1080/10349120120036297
15. Kadushin, Charles. (1969). The Professional Self-Concept of Music Students. American Journal of Sociology, 75:3, 389-404
16. Kaur, Jagpreet & Rana, J & Kaur, Rupinder. (2009). Home Environment and Academic Achievement as Correlates of Self-concept among Adolescents. Stud Home Comm Sci. 3. 13-17. 10.1080/09737189.2009.11885270.
17. Korrel, W., K. (1980). Parent-Child Relationships and Self Concept: A Comparison of Children from Divorced and Intact Families. University of Tennessee – Knoxville
18. Lau, Katherine & Marsee, Monica & Kunimatsu, Melissa & Fassnacht, Gregory. (2011). Examining Associations Between Narcissism, Behavior Problems, and Anxiety in Non-Referred Adolescents. Child & Youth Care Forum. 40. 163-176. 10.1007/s10566-010-9135-1.
19. Lee, G. & Simpkins, S.D. (2021). Ability self-concepts and parental support may protect adolescents when they experience low support from their math teachers. Journal of Adolescence, 88, pp. 48-57.
20. Manning, M. A. (2007). Self-concept and self-esteem in adolescents. Principle Leadership Magazine, February, 11-15.
21. Marsh, H. W. (1989). Age and sex effects in multiple dimensions of self-concept: Preadolescence to early adulthood. Journal of Educational Psychology, 81(3), 417–430. https://doi.org/10.1037/0022-0663.81.3.417
22. Marsh, H. W., Parker, J. W. (1984). "Determinants of student self-concept: Is it better to be a relatively large fish in a small pond even if you don't learn to swim as well?". Journal of Personality and Social Psychology, July, 47 (1): 213–231. doi:10.1037/0022-3514.47.1.213.

23. Marsh, H.W. & Martin, A.J. (2011). Academic self-concept and academic achievement: Relations and causal ordering. British Journal of Educational Psychology, 81: 59-77. https://doi.org/10.1348/000709910X503501
24. Marsh, H.W., Pekrun, R., Murayama, K., Arens, A.K., Parker, P.D., Guo, J., & Dicke, T. (2018). An integrated model of academic self-concept development: Academic self-concept, grades, test scores, and tracking over 6 years. Developmental Psychology, 54(2), 263–280. https://doi.org/10.1037/dev0000393
25. Miller, S. A., Church, E. B., & Poole, C. (n.d.). Ages & stages: How children develop self-concept. Scholastic. Retrieved from https://www.scholastic.com/teachers/articles/teaching-content/ages-stages-how-children-develop-self-concept/
26. Perry, Clark Jr.; Marsh, Herbert W. (2000). "Listening to Self-Talk, Hearing Self Concept". In Andersen, Mark B. (ed.). Doing Sport Psychology. Human Kinetics, January, pp. 64–65. ISBN 9780736000864.
27. Pinquart, M., Sörensen, S. (2001). Gender Differences in Self-Concept and Psychological Well-Being in Old Age: A Meta-Analysis. The Journals of Gerontology, Series B, Volume 56, Issue 4, 1 July, Pages P195–P213, https://doi.org/10.1093/geronb/56.4.P195
28. Regan, E. & DeWitt, J. (2015). Attitudes, interest and factors influencing STEM enrolment behaviour: An overview of relevant literature. In E.K. Henriksen, J. Dillon, & J.Ryder (Eds.), Understanding student participation and choice in science and technology education (pp. 63–88). Dordrecht: Springer, Netherlands.
29. Revicki, Dennis A. (1981). The Relationship Among Socioeconomic Status, Home Environment, Parent Involvement, Child Self Concept and Child Achievement. Retrieved from https://eric.ed.gov/?id=ED206645
30. Rogers C.A. (1959). Theory of Therapy, Personality and Interpersonal Relationships as Developed in the Client-centered Framework. In: S Koch, ed. Psychology: A Study of a Science. Vol. 3: Formulations of the Person and the Social Context. New York: McGraw-Hill.
31. Rohany, Nasir & Lee, Lin. (2012). The Relationship between Self-concept and Career Awareness

amongst Students. Asian Social Science. 9. 10.5539/ass.v9n1p193.
32. Sebastian, C., Burnett, S., & Blakemore, S. J. (2008). Development of the self-concept during adolescence. Trends in Cognitive Science, 12, 441-446.
33. Smit, R., Robin, N. & De Toffol, C. et al. (2021). Industry-school projects as an aim to foster secondary school students' interest in technology and engineering careers. Int J Technol Des Educ, 31, 61–79 (2021). https://doi.org/ 10.1007/ s10798-019-09538-0
34. Soltani, & Leila, & Ebrahim, Mirshahjaafari & Arbabisarjou, & Azizollah, Arbabisarjou. (2013). The Relationship between Children's Self-Esteem and Parents' Educational Level Shirani, Nahid. 10.13140/2.1.2156.5440.
35. Super, D. E., Starishevsky, R., Matlin, N., & Jordaan, J. P. (1963). Career development; Self-concept theory. New York, NY: College Entrance Examination Board.
36. Sticker, R.M., Christner, N., Pletti, C.,Paulus, M. (2021). The moral self-concept in preschool children: Its dimensions and relation to prosocial behaviors. Cognitive Development, Volume 58, 1 April, Article number 101033
37. Vartanian, L.R. & Dey, Sh. (2013). Self-concept clarity, thin-ideal internalization, and appearance-related social comparison as predictors of body dissatisfaction. Body Image, Volume 10, Issue 4, Pages 495-500, ISSN 1740-1445, https://doi.org/10.1016/j.bodyim.2013.05.004. (https://www.sciencedirect.com/science/article/pii/S174014451300065X)
38. Clem, A.L., Hirvonen, R., Aunola, K., Kiuru, N. (2021). Reciprocal relations between adolescents' self-concepts of ability and achievement emotions in mathematics and literacy. Contemporary Educational Psychology, 65, art. no. 101964, .
39. Wang, M.T. & Degol, J. (2013). Motivational pathways to STEM career choices: Using expectancy-value perspective to understand individual and gender differences in STEM fields. Developmental Review, 33(4), 304–340. https://doi.org/10.1016/j.dr.2013.1008.1001.
40. Белинская Е.П., Тихомандрицкая О.А. (2009). Социальная психология личности: учеб. пособие для студ. высш. учеб. заведений. М.: Академия

# DEVELOPMENT DYNAMICS OF THE CONCEPT OF “I”.

***Parviz Kazymov***

## ABSTRACT

Self-concept is a set of one’s beliefs about his or her behavior, abilities, values and other characteristics. It is a psychological construct that determines a person’s attitude towards himself and others, and therefore his behavior, choices and achievements in the social environment. Some authors note that the self-concept has emotional, cognitive and behavioral components. Emotional components include self-esteem and self-confidence, and cognitive components include self-evaluation, including evaluation of one’s own qualities in a specific environment or in relation to certain goals. Although its foundation is laid in the family and close social environment in childhood, it changes and takes new forms later in the educational and career processes. Although considered related to each other, the general, academic and professional self-concepts are distinguished by many authors. Factors such as parents, educational environment, work environment, age, gender, external appearance can play an important role in the formation of self-concept. The emotional component of self-concept has a rather contradictory nature and can sometimes have a positive, sometimes negative, and sometimes no significant effect on a person’s achievements. This can be based on distorted ideas about oneself. In this regard, one of the conditions for a healthy self-concept is the ability of reflection, self-awarenss and understanding the world. The results of many studies show that if the emotional components play a leading role in the formation of self-concept in early stages, the weight of the cognitive component should increase after a certain age in normal dynamics. In this article, the author analyses the development dynamics of self-concept and the factors affecting it based on the literature review.

Məqalə BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №5).

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru.

Məqalə redaksiyaya 28 mart 2022-ci ildə daxil olmuşdur.

UOT 351.858

# MASKULİN VƏ FEMİNİST QRUPLAR GENDER İDENTİKLİYİNİN KATEQORİYASI KİMİ

**Nişan Nuriyeva**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küçəsi 33, indeks: AZ 1148*
*E-mail: heybetlin@mail.ru*

***Açar sözlər:*** *gender, cinsi orientasiya, maskulinizasiya, feminizasiya, androgenlik, gender identikliyi, gender stereotipləri*
***Keywords:*** *gender, sexual orientation, masculinization, feminization, androgen, gender identity, gender stereotypes*

## GİRİŞ

Ənənəvi olaraq cinslər arasında təbii hesab edilən fərqlərin hamısı əslində sosial və mədəni münasibətlər sistemidir. Gender stereotipləri cəmiyyətdə mövcud gender münasibətləri və rolların əsasında durur. Stereotiplər kişi və qadınların sadələşdirilmiş sxematikləşdirilmiş emosional rəngli və sabit obrazıdır və bir növ sosial stereotiplər kimi qəbul edilir. Təsvir edilən gender stereotiplərini üç qrupa bölmək olar [2, s.100-103]:

1-ci qrup – maskulin-feminist (kişi-qadın) stereotiplər

Maskulin-feminin steorotiplər – kişi və qadına xas olan somatik, psixi və davranış xüsusiyyətləri haqqında normativ fikirlər və münasibətlər toplusudur. Onların fikrincə, kişilər özünə güvənən, bacarıqlı, dominant, aqressiv və məntiqli düşünməyə meyillidirlər. Qadınlar isə asılı, emosional, itaətkar, rahat və zərifdirlər.

2-ci qrup – genderə uyğun olaraq ailə və peşəkar rolların stereotipləri.

Bir qadın üçün əsas sosial rollar ailə (ana, evdar qadın), kişi üçün – peşə (iş) hesab olunur. Kişilər, adətən, peşəkar uğurları ilə, qadınları isə ailə və uşaqların varlığı ilə qiymətləndirilir.

3-cü qrup – əməyin məzmunu ilə bağlı stereotiplər.

Qadınlar üçün bu, ifadəli (ekspressiv) fəaliyyət sahəsidir, burada əsas şey əməyin icra və xidmət xarakteridir. İnstrumental sahə isə kişilərin fəaliyyət sahəsidir, burada əsas yaradıcı, istiqamətləndirici, konstruktiv işdir.

Stereotiplər – eyniləşdirilən qrup üzvlərinin bir-birinə bənzədiyi və həmin qrupların qavranması zamanı sxem kimi işləyən geniş yayılmış fikirlərdir. Gender qavrayışa təsir edən əsas sosial və koqnitiv meyar kimi götürülür.

Cəmiyyətdə gender stereotiplərinin yaranmasına təsir edən bəzi amillər:

**Öz cinsinin sxemi** (own-sex schema) (Martin & Halverson, 1997) – genderə müvafiq gələn davranış üçün lazım olan hərəkət ssenarisi və planlarından ibarət sxemdir. Uşaqlar öz cinsini eyniləşdirə bilən kimi onlarda öz qrupunun üzvlərinə oxşamaq motivi yaranır və onlar həmin qrupda qəbul olunmuş davranış modelini daha diqqətlə müşahidə etməyə başlayır.

**Davamlılıq effekti** (Taylor & Fiske, 1988) – şəxsiyyətin sxemə zidd olan informasiyanı yadda saxlasa belə öz stereotiplərini mütləq dəyişəcəyi demək olmadığından ibarət bir hadisədir. Sxemlərin təbiəti belədir ki, onları inkar edən faktla üzləşdiyi zaman da öz möhkəmliyini saxlayır. Çox vaxt insan onun sxemindən kənar olan fərd üçün cavab olaraq *qaydadan istisna kateqoriyası* yaradır.

**İllüzor korrelyasiya** (Illusory correlation) – anlayışlar arasında əlaqə möhkəmliyinin həddindən yüksək qiymətləndirilməsi, yaxud həmin əlaqəni onun, ümumiyyətlə, olmadığı bir yerdə müəyyən etmək cəhdidir. Genderlə bağlı uydurulmuş, yaxud şişirdilmiş əlaqə çox zaman gender və müəyyən keyfiyyətlər, vərdiş və davranış arasında görsənir.

İdeal qadın obrazı belə görünür: qadın zərif, gözəl, yumşaq, mehriban, eyni zamanda passiv və asılı olmalı, kişinin ona münasibətdə özünü güclü, enerjili və uğurlu hiss etməsinə imkan verməlidir. Bu feminizim (qadınlıq) keyfiyyətləri bu gün də yüksək qiymətləndirilir, lakin qadınların özünüdərketməsindən sonra yeni xüsusiyyətlər də yaranıb. Kişilik stereotipləri də dəyişib. Əvvəllər kişilik, ilk növbədə, fiziki güc, incəliyin boğulması, qadına funksional münasibət və eyni zamanda qəzəb, ehtiras kimi hissləri ifadə etməkdə laqeydlik kimi keyfiyyətlərlə bilinirdi. İndi isə maskulinlik (kişilik) intellekti fiziki gücdən üstün tutur, zərifliyin və mənəvi incəliyin təzahürünə, həmçinin "kobud" hiss və impulsların yatırılmasına imkan verir və hətta tələb edir.

Maskulin və feminist stereotiplər getdikcə daha sərt və qütbləşmiş rol alır. Sosial rollar kimi insan keyfiyyətləri də cinsinə görə fərqlənmir.

Bundan əlavə, bu gün kişilik və qadınlıq idealları həmişəkindən daha çox ziddiyyət təşkil edir. Birincisi,

ənənəvi xüsusiyyətlər müasir olanlarla iç-içədir. İkincisi, fərdi variasiyaların müxtəlifliyini nəzərə alaraq, onlar əvvəlkindən daha tamdır. Üçüncüsü, onlar təkcə kişi deyil, həm də qadın baxışlarını əks etdirir.

Bununla belə, kişilərdə və qadınlarda fəaliyyətlərin təbiəti, maraqların istiqamətləndirilməsi və psixi proseslərin gedişində əhəmiyyətli fərqlər qalır.

Yeni, təkmilləşdirilmiş testlər maskulinlik və feministliyi artıq eyni xüsusiyyətin qütbləri kimi deyil, müstəqil ölçülər kimi nəzərdən keçirir. V.V.Znakova görə: "Psixoloji mexanizmlərin açıqlanması üçün gender psixologiyası mütəxəssisləri insanın kişilik və qadınlıq kimi xüsusiyyətlərinin tərifini nəzərdən keçirmələri əhəmiyyətlidir". Eyni fərdin göstəricilərinin kişilik və qadınlıq miqyasında müqayisəsi onun psixoloji androgeniyasının dərəcəsini hesablamağa imkan verir. Fərdlərin androgen olması yüksək qadınlıq və kişilik nisbətlərinə sahiblik, bu da onlara gender rolu normalarına daha az ciddi riayət etməyə, ənənəvi qadın fəaliyyətindən daha sərbəst şəkildə kişi fəaliyyətinə keçməyə imkan verir.

Psixoloji androgenlik anlayışı somatik keyfiyyətlərə deyil, yalnız davranış və münasibətlərə aiddir. Androgen, çeviklik və uyğunlaşma, vəziyyətdən asılı olaraq davranışını dəyişdirmək qabiliyyətini təyin edən, stresə qarşı müqavimətin formalaşmasına və həyatın müxtəlif sahələrində uğur qazanmağa kömək edən insanın əhəmiyyətli psixoloji xüsusiyyətidir. Gender şəxsiyyətinin androgen tipi aşağıdakılarla xarakterizə olunur: müstəqillik, qayğıkeşlik, spesifik kişi və qadın cinslə fərqlənməyən funksiyaları yerinə yetirmək bacarığı və s. Nəticədə, sadə "kişi" və "qadın" dixotomiyası əvəzinə 4 psixoloji tip meydana çıxdı:

- maskulin kişilər (kişiyə xas olan xüsusiyyətlərə görə yüksək, qadınlara görə aşağı göstəricili);
- feminist kişilər (yüksək qadın və az kişi xüsusiyyətləri);
- androgen kişilər (hər iki miqyasda yüksək göstəricilər);
- psixoloji cəhətdən fərqlənməyən kişilər (hər iki miqyasda aşağı göstəricilər);
- və qadınların bu tip eyni 4 kateqoriyası.

Bu tipologiya 1974-cü ildə S.Bem tərəfindən androgeniya konsepsiyasının bir hissəsi kimi işlənib hazırlanmışdır və bütün əvvəlki tipologiyalardan şəxsiyyətin müstəqil ölçüləri kimi maskulinizasiya və feminizasiya ideyası üzərində qurulması ilə fərqlənirdi. Onun testi kişi və qadınları 4 qrupa bölməyə imkan verib. Birinci qrupa açıq şəkildə

ənənəvi kişi keyfiyyətlərinə malik olan maskulinlik daxildir – qətiyyət, ambisiya, cəsarət, qürur, inadkarlıq və s. İkinci qrupa ənənəvi qadın keyfiyyətləri olan femininlik, yumşaqlıq, emosionallıq, qayğıkeşlik, evdarlıq və s. Üçüncü qrupa androgen keyfiyyətlərə malik olan şəxslər daxildir, yəni, ənənəvi olaraq qadın, və kişi xüsusiyyətləri birləşdirilir. Dördüncü qrup, kişi və ya qadın xüsusiyyətlərini ifadə etməyən insanlardan ibarətdir [1, s. 45-48].

"Maskulinlik" anlayışına, adətən kişilərdən şəxsiyyətlərarası münasibətlərdə məqsədyönlülüyünü qoruyub saxlaması və toxunulmazlıq əks etdirməsi kimi gözlənilən davranış növləri daxildir. Kişi keyfiyyətlərinə aşağıdakılar daxildir: özünə güvənən, öz fikirlərini müdafiə etməyə meyilli, müstəqil, atletik, iddialı, güclü şəxsiyyət, liderlik qabiliyyətinə malik, riskdən çəkinən, tez qərar qəbul edən, yalnız özünə güvənən, ağalıq edən, cəsarətli, öz mövqeyinə malik, aqressiv, liderliyə meyilli, fərdi, rəqabətçi, iddialı və s.

"Feministlik" anlayışına, adətən, qadımlardan şəxsiyyətlərarası münasibətlərdə qarşılıqlı faydalı keyfiyyətlərin təşviqinə yönəlmiş fəaliyyətləri əhatə edir. Qadın xüsusiyyətlərinə aşağıdakılar daxildir: itaətkar, şən, utancaq, mülayim, yaltaqlığa həris, sədaqətli, qadına xas, rəğbət bəsləməyi bacaran, alçaq səslə danışan, isti, yumşaq, güvənən, infantil, söyüşü sevməyən, uşaqları sevən, sakit və s.

Cinslərin barışması ideyasına əsaslanan androgeniya konsepsiyası sosial həyatın qadın və kişi tərzinin mədəni şəkildə qəbul edilmiş təriflərini məhv edir, orijinallığı ilə seçilən şəxsi təzahürləri dəstəkləyir. Androgen şəxsiyyət müəyyən bir tərbiyənin təsiri altında və uşağı hər iki cinsə xas olan davranışları öyrənməyə təşviq edən valideynlərin xüsusi mövqeyi sayəsində formalaşır. Bu konsepsiyaya görə, kişinin maskulin identikliyin qadın xüsusiyyətlərini, qadının feminin identikliyi də kişi xüsusiyyətlərini ehtiva edə bilər. Androgeniyanın dərk edilməsinə bu yanaşma birgə mövcudluq anlayışı kimi müəyyən edilmişdir (Lorenzi-Cioldi F., 1996). Güman edilirdi ki, kişiliyin və qadınlığın daxili birgə mövcudluğu baxımından androgenlik gender xüsusiyyətləri konseptuallaşdırılmasının nəticəsi kimi situasiyaya uyğunlaşmasının yüksək dərəcəsi olacaqdır. Bu fərziyyə eksperimental olaraq İ.S. Kon tərəfindən sınaqdan keçirilmişdir, hər iki cinsin fərdləri arasında psixoloji uyğunlaşmada ən müvəffəqiyyətli tip maskulinlik olmuşdur. Birgə mövcudluğun androgen modeli əhəmiyyətli olsa da, az təsdiqləndi, lakin nəzəriyyə özünü

doğrultmadı. İ.S.Kon göstərdi ki, fərdin cinsi-rol stereotipinə maksimum bağlılığı, yəni kişilərdə yüksək kişilik, qadınlarda isə yüksək qadınlıq heç bir halda psixi və sosial rifahın təminatı deyil. Feminist qadınların artan həyəcanlılıq hissi və aşağı özünə hörmətlə xarakterizə olunan əlamətlər qadınlıq xüsusiyyətləri toplusuna daxildir. Maskulin xüsusiyyətli yeniyetmə oğlanlar öz həmyaşıdları arasında öz mövqelərindən daha çox özlərinə inamlı və razı idilər, lakin 30 ildən sonra bu kişilər daha narahat və az özünəinamlı, eyni zamanda liderlik qabiliyyəti də az olmaları ilə seçilirdilər [7, s. 68-70].

Feminist cinsli qadınlar və maskulin kişilər cins-rol fərqinin ənənəvi normaları ilə üst-üstə düşməyən fəaliyyətlərin öhdəsindən daha pis gəlirlər. Davranışları gender roluna daha çox uyğun gələn uşaqlarda intellekt və yaradıcılıq zəif olur. Maskulinizasiya və feminizasiya şkalası, bir tərəfdən, fərdi xüsusiyyətlərlə, digər tərəfdən cinsiyyətin sosial tərifləri və müəyyən bir sosial mühitdə qəbul edilmiş gender-rol steorotipləri ilə əlaqələndirilir. Halbuki bunlar tamamilə fərqli hadisələrdir. Eyni zamanda kişi və qadın əlamətləri toplusunun tərifindəki uyğunsuzluqlar və ya onların arzuolunmazlığı (normativlik) təcrübələrin nəticələrini əsasən əvvəlcədən müəyyənləşdirir. Qeyd olunur ki, kişi və qadınların androqinaya münasibəti fərqlidir. Qadınlar qadın xüsusiyyətlərindən daha çox androqin xassələrə üstünlük verirlər, kişilər isə daha mühafizəkardırlar, onlar cinsi rolun diferensiallaşdırılmasının ənənəvi normalarını rəhbər tuturlar. Bu, kişi roluna qadın rolundan müəyyən üstünlüklər verən sosial amillərlə bağlıdır. Androgenliyin oriyentasiyasında kənara çıxmalar daha çox yaşlı və yeniyetmələr arasında rast gəlinir.

“Gender” termini cəmiyyət tərəfindən yaradılmış, sosial nəzarət institutları və mədəni ənənələr tərəfindən təyin edilmişdir. Buraya cəmiyyətin inkişafı prosesində işləyib hazırladığı konkret simvollar, insanın və cəmiyyətin həyatını tənzimləyən norma və qanunlar, bu normaları həyata keçirən sosial institutlar daxildir. Gender müəyyən sosiallaşma sistemi, əmək bölgüsü və mədəniyyət normaları, cəmiyyətdə qəbul edilən rollar və stereotiplər vasitəsilə qurulur. Cəmiyyətdə təsbit olunmuş gender normaları bioloji cinsindən asılı olaraq insanların psixoloji keyfiyyətlərini (bəzilərini həvəsləndirən, digərlərini isə mənfi qiymətləndirən), qabiliyyətlərini (steorotiplər), fəaliyyət növlərini, peşələrini müəyyən dərəcədə müəyyən edir. Stereotiplər qadınları passiv, itaətkar, emosional, işbirlikçi, insanlara yönümlü

olmağı tövsiyə edir. Qadınlar sevgini, ünsiyyəti, gözəlliyi yüksək qiymətləndirirlər. Kişilər aqressivlik, liderlik arzusu, rəqabət qabiliyyəti, rasionallıq ilə əlaqələndirilir. Kişilər gücə can atırlar, qabiliyyətləri, bacarıqları yüksək qiymətləndirirlər. Eyni zamanda gender rolları və normaları universal məzmun daşımır və müxtəlif cəmiyyətlərdə əhəmiyyətli dərəcədə fərqlənir. Beləliklə, kişi və ya qadın olmaq, ümumiyyətlə, müəyyən təbii keyfiyyətlərə sahib olmaq deyil, müəyyən bir rolun yerinə yetirilməsi deməkdir.

"Qadın" və "kişi" anlayışları gender anlayışının inkişafı ilə birlikdə daha fəal şəkildə istifadə olunmağa başladı və gender tədqiqatlarında "qadın" və "kişi"nin mədəni simvolik mənasını ifadə etmək üçün istifadə olunur.

**NƏTİCƏ**

Böyük dinamizm və sosial-mədəni nümunələrin və normaların dəyişkənliyi ilə xarakterizə olunan müasir dünya insanı əlavə çətinliklərlə üzləşdirir. Kişilərin və qadınların sosial vəziyyəti fəaliyyətin xarakterini dəyişir. Çoxsaylı araşdırmalar göstərir ki, motivlər və dəyər oriyentasiyaları genderə xasdır. Məsələn, qadınlar ailəyə və uşaq böyütməyə diqqət yetirirlər, kişilər isə karyera və hobbilərə üstünlük verirlər. Bununla belə, dəyər oriyentasiyaları və münasibətlərindəki fərqlər də öz təbiətinə görə qadın və kişi həyatının müəyyən sahələrinin əhəmiyyətinin çərçivəsini əvvəlcədən müəyyən edən gender stereotiplərinin təsirinin nəticəsidir.

**Ədəbiyyat:**


1. Bem S.L., 1981.Gender schema theory: A cognitive account of sex typing.
2. CannA. & Siegfried W.D., 2000. Gender stereotypes and dimensions of effective leader behaviour. //Sex Roles
3. Eccles J.S., 1990 Gender-role socialization. Social psychology. Forth Worth, TX:Holt Rinehart Winston
4. Берн Ш. Гендерная психология. Санкт-Петербург: 2001.
5. Клецина И.С. От психологии пола – к гендерным исследованиям в психологии. М: 2003. № 1.
6. Майерс Д. Социальная психология. Санкт-Петербург: 2000.
7. Хорни К. Самоанализ: Психология женщины. Новые пути в психоанализе. Санкт-Петербург: 1998.

## MASCULINE AND FEMINIST GROUPS AS CATEGORIES OF GENDER IDENTITY

***Nishan Nuriyeva***

**ABSTRACT**

Gender refers to an individual's masculine (masculine) or feminine (feminine) role, attitudes and behaviors in accordance with his or her gender in a society. None of the segregration or differentiation among individuals is as clear and common as the biological definitions of the sexes as male and female. However, sexuality does not reveal only biological characteristics. From individual's perspective, sexuality emerges as a social categoiy just at the beginning of life. In the following years, an individual world of cognition, thought and life in the axis of sexualiy is built. This constructed world is gender. Gender refers to the knowledge of a particular sex, social expecitatitons and roles arounds the knowledge.

Məqalə BDU-nun Psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №5).

Rəyçi R.V.Cabbarov, psixologiya elmləri doktoru, dosent.

Məqalə redaksiyaya 30 mart 2022-ci ildə daxil olmuşdur.

UOT 159.99

# ПРАВОВОЙ НИГИЛИЗМ И ПРАВОВОЙ ИНФАНТИЛИЗМ КАК ДЕФОРМАЦИИ ПРАВОСОЗНАНИЯ

**Тейба Халилова**

*Бакинский Государственный Университет*
*Zahid Xəlilov küçəsi 33, indeks: AZ 1148*
*E-mail: teyba.xalilova@gmail.com*

***Açar sözlər:*** *hüquqi şüur, mənəvi və hüquqi münasibətlər, hüquq mədəniyyəti, hüquqi sosiallaşma, hüquqi qüsurlar, hüquqi nihilizm, hüquqi infantilizm*

***Ключевые слова:*** *правосознание, нравственно-правовые отношения, правовая культура, правовая социализация, деформация правосознания, правовой нигилизм, правовой инфантилизм*

***Keywords:*** *legal awareness, moral and legal relations, legal culture, legal socialization, legal defects, legal nihilism, legal infantilism*

## ВВЕДЕНИЕ

Прежде всего, следует отметить, что мы часто встречаем резкие разногласия среди исследователей в направлении исследования правосознания. Из-за этих разногласий до сих пор нет единого и общепризнанного определения правосознания [3].

Однако правосознание как регулятор индивидуального поведения каждого человека становится особой формой реализации права и, соответственно, способом его реализации. Точнее говоря, никакое регулятивное воздействие права невозможно вне человеческого сознания, и право не может осуществляться отдельно от сознания, что и определяет его ценностные характеристики как регулятивного явления. И это неспроста, поскольку правосознание представляет собой совокупность рационального и психологического компонентов, которые не только отражают постижение правовой действительности, но и воздействуют на него, формируя личностную готовность к правоповедению [1]. Это означает, что правосознание в большей или меньшей степени выполняет свою должную функцию – регулирование поведения человека, что предполагает его отношение к

существующему праву и правовой системе в целом.

Неразвитость правовой культуры приводит к такому явлению, как деформация правосознания, выражающая негативное отношение субъекта к определенным ценностям, нормам, мнениям, идеалам, отдельным, а в ряде случаев и ко всем сторонам жизни человека. В то же время право ведет к деформации правосознания, то есть порождает правовой паразитизм.

Деформация правосознания предполагает наличие определенного исходного запаса взглядов, знаний, отношений, носящих правовой характер, которые по разным причинам превратились в какие-то иные, неправовые конструкции либо остались правовыми лишь номинально или частично.

Можно выделить несколько распространенных форм деформации индивидуального правосознания. Правовой инфантилизм, правовой нигилизм, правовой фетишизм, перерождение правосознания являются наиболее распространенными формами деформации правосознания [4].

***Правовой нигилизм.*** Сегодня специалисты называют ликвидацию правового нигилизма в сознании и деятельности членов общества одной из приоритетных задач, стоящих перед правовой культурой. Это объясняется тем, что правовой нигилизм напрямую влияет на уровень правосознания и правовой культуры в обществе.

В научной литературе можно увидеть несколько видов правового нигилизма. В частности, ряд российских исследователей обращают внимание на следующие формы правового нигилизма:

- умышленное нарушение законодательства, а также иных важных нормативно-правовых актов;
- несоблюдение правовых норм в общественных местах;
- издание противоречивых правовых актов;
- целенаправленная замена законодательства;
- конфликт между структурами представительной и исполнительной власти;
- нарушение законодательства и прав человека;
- существование теоретической формы правового нигилизма [5].

Нигилизм интерпретируется как отсутствие веры в один или несколько общепринятых в обществе аспектов жизни. Датский профессор О.Хассельбальк разъяс-

няет правовой нигилизм как абсолютное или полуабсолютное отрицание и полное игнорирование всех нормативно-правовых принципов необходимого и предписанного поведения [2].

В современных индустриальных обществах официальные правила, то есть действующие законы существуют как следствие преднамеренного и тщательного рассмотрения процедур относительно того, как установить правила человеческого взаимодействия и как решить, какой должна быть сущность действующего права. В основном это делается по странам в соответствии с национальным опытом и традициями.

Причиной правового нигилизма, например, может быть:

– разочарование тем, как работают формальные правила или как они применяются;
– то, что на экономическом уровне их выгоднее не принимать;
– нежелание позволять людям издавать законы, поскольку закон дан Богом или другим божественным существом и т.д. [2].

***Правовой инфантилизм*** – это наиболее мягкая форма искажения правосознания, заключающаяся в неясности, неосведомленности, пробеле в правовых знаниях. Он объясняется как неадекватность, несформированность юридических знаний при личной уверенности в хорошей юридической подготовке.

Этот тип деформации традиционно присущ молодежи, не умеющей адекватно оценивать уровень своих знаний и имеющей завышенную самооценку. Другим проявлением правового инфантилизма является пробел в правосознании, возникающий на почве полного незнания какого-либо элемента правовой действительности или на почве забывания таких знаний [1].

Как было уже отмечено, правовой инфантилизм выражается в:

– незнание законодательства;
– отсутствие оценочного правового мышления.

Правовой инфантилизм является серьезной предпосылкой возникновения всеобщего неуважения к закону и деятельности правоохранительных органов.

## ВЫВОДЫ

Рассматривая различные формы деформации правосознания населения, нельзя не видеть в них одной общей черты – отсутствия, а нередко и атрофии нравственного чувства. Иными словами, состояние правосознания граждан в большей

степени, чем любые факторы, предопределяется состоянием их нравственного здоровья.

По результатам исследования можно сказать, что процесс устранения деформации правосознания является очень сложным, трудным и кропотливым процессом. В этом процессе особое внимание уделяется превентивным мерам.

***Литература:***

1. Crisis and deformation of legal consciousness. deformations of legal consciousness: concept, types, reasons [электронный ресурс] // https://buhconsul.ru/en/krizis-i-deformaciya-pravosoznaniya-deformacii-pravovogo/
2. Hasselbalch O. Law and legal nihilism [электронный ресурс] // https://pure.au.dk/portal/en/publications/law-and-legal-nihilism (68245656-720f-456b-b5d3-42b7ee38cda5).html
3. Horáka F., Lackob D., Klocek A.Legal Consciousness: A systematic review of its conceptualization and measurement methods // Anuario de Psicología Jurídica №31, 2021, p. 9-34
4. Olga V.Kravchenko. Legal consciousness and forms of its deformation // Journal of Legal, Ethical and Regulatory Issues. Special Issue № 1 (24), 2021, p. 1-13
5. Utemuratov M. The effect of legal nigilism and legal idealism on the level of legal consciousness and culture // Turkish Journal of Computer and Mathematics Education №9 (12), 2021, p. 3433-3435

## HÜQUQİ NİHİLİZM VƏ HÜQUQİ İNFANTİLİZM HÜQUQİ ŞÜURUN DEFORMASİYALARI KİMİ

***Teybə Xəlilova***

**ABSTRAKT**

Məqalədə hüquqi şüurun deformasiyasının nihilizm və infantilizm kimi formalarından bəhs edilir. Müəyyən edilir ki, hüquqi şüurun deformasiyasının həm formaları, həm də onun özü cəmiyyət üçün sosial cəhətdən çox təhlükəlidir. Deməli, hüquqi şüurun deformasiyası ilə barışmaq cəmiyyətin digər üzvlərinin mənəvi-hüquqi münasibətlərini zəiflədir və onun yayılmasına şərait yaradır.

# LEGAL NIHILISM AND LEGAL INFANTILISM AS FORMS OF DEFORMATION OF LEGAL CONSCIOUSNESS

***Teyba Khalilova***

**ABSTRACT**

The article discusses such forms of legal consciousness deformation as nihilism and infantilism. It determines that not only certain forms of deformation of legal consciousness, but this phenomenon as a whole is socially very dangerous for society. Hence, accepting deformation of legal consciousness weakens the moral and legal relations of other members of society and creates conditions for its spread to a wider sphere.

Məqalə Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №4).
Rəyçi Ə.T.Baxşəliyev, psixologiya elmləri doktoru, professor.
Məqalə redaksiyaya 04 aprel 2022-ci ildə daxil olmuşdur.

UOT 159.9

# CİNSİ ZORAKILIQ QURBANLARININ PSİXOLOJİ XARAKTERİSTİKASI

**Narın Əbilova**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küç. 23, indeks: AZ 1148*
*E-mail: abilovanarin777@gmail.com*

***Açar sözlər:*** *yetkinlik yaşına çatmayan, cinsi zorakılıq, zərərçəkmişlər, psixoloji xarakteristika.*
***Keywords:*** *juvenile, sexual violence, victims, psychological characteristics*

## GİRİŞ

Son illər ərzində Avropa Şurası (AŞ) bir sıra ölkələrin (Fransa, Böyük Britaniya, İspaniya) statistik məlumatlarına əsasən cinsi zorakılıq hallarının nisbətinin artdığını diqqətə çatdırır. Onların sözlərinə görə hər il milyonlarla qadınlar və qızlar cinsi zorakılığın qurbanı olur və həmçinin onlar arasında oğlan uşaqları da çoxluq təşkil edir. Birləşmiş Millətlər Təşkilatı (BMT) həmçinin dünyanın heç bir ölkəsində zorakılığın müxtəlif formalarda təzahürünü istisna etmədiyini nəzərə alaraq bu fenomenin universallığını vurğulayır. Bu fenomenin yayılması baxımından Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, ən azı hər üç qadından biri cinsi əlaqəyə məcbur olunur, beş qadından biri 15 yaşına qədər cinsi istismara məruz qalır və təcavüzkar əksər hallarda həyat yoldaşı və ya digər ailə üzvü olur. Qadınların əksəriyyətinin öz yaxın münasibətdə olduğu şəxslər tərəfindən ən azı bir dəfə cinsi zorakılığa məruz qaldığı ölkələr siyahısında ilk üçlüyü Efiopiya (58,6%), Banqladeş (49,7%) və Peru (46,7%) tutur [4].

Uşaqlara qarşı cinsi zorakılıqlarla bağlı Ümumdünya Səhiyyə Təşkilatı (2020) uşaqlıq dövründə cinsi zorakılığın son dərəcə yüksək nisbətdə əks olunduğunu diqqət mərkəzinə çəkir və 2019-cu ildə 2–17 yaş arasında bir milyarda qədər uşağın emosional, fiziki, cinsi hücuma və zorakılığa məruz qaldığını açıqlayır. Bu hesabatlara görə bu zorakılıq onlara valideynləri, onlara qayğı göstərən şəxslər, həmyaşıdları, sevgi münasibətində olduğu şəxslər və ya yad insanlar tərəfindən həyata keçirilmişdir [3].

Cinsi zorakılıq daha çox qadınlara qarşı yönəlsə də, cinsi zorakılıq hallarının əksəriyyəti yeniyetməlik və uşaqlıq dövründə baş verir. Keçid yaş mərhələsində olmaq, fizioloji və çoxsaylı psixoloji davranış dəyişiklikləri ilə əlaqəni nəzərə alsaq bu yaş qrupunda nəticələr olduqca ciddidir.

Belə bir suallar yaranır ki, nəyə görə?, hansı səbəblərə görə? zərərçəkmişlər cinsi zorakılığın qurbanına çevrilir?

Kriminologiyada zərərçəkmişin şəxsiyyətini, onun cinayətkarla qarşılıqlı münasibətini, kriminal situasiyada cinayətin qurbanının davranış xüsusiyyətlərini öyrənən elm viktimologiya adlanır ("viktima" latın sözü olub – "qurban", "loqos" – yunan dilindən tərcümədə "təlim" deməkdir). Viktimologiyanın mərkəzi anlayışı olan "viktimlik" müəyyən kateqoriya insanların qurban olmağa meyilliliyini nəzərdə tutur. İlk dəfə olaraq viktimlik anlayışını elmə L.V.Frank daxil etmiş və viktimliyi insanın fərdi və ya kollektiv olaraq cinayətin qurbanına çevrilmək qabiliyyəti kimi xarakterizə edirdi. Viktimlik insanın şəxsi keyfiyyətləri, sosial rolu, situsiyanın xüsusiyyətləri ilə şərtlənə bilər [1].

1956-cı ildə Hans Şults cinayətkarla qurban arasındakı münasibətlərə diqqət etmək lazım olduğunu irəli sürərək hesab edirdi ki, bir çox cinayətlər cinayətkarla qurban arasındakı şəxsi münasibətlər zəminində törədilir. Cinayətkarlarla qurban arasında şəxsi münasibətlər onların tanışlığının səviyyəsindən və intensivliyindən asılı olaraq müxtəlif cür əlaqələr mövcud olur. Həmçinin cinayətkar zərərçəkmişi qiyabi tanıya və ya bir-birini üzdən tanımış da bilərlər. Tanışlıq qonşuluqda yaşamaq və ya ötəri də ola bilər. Əlaqə çox vaxt bilavasitə cinayət törədilməzdən əvvəl də yarana bilər, səthi sosial münasibətlər daha yaxın tanışlığa, dostluğa çevrilə bilər. Bu baxımdan, Hans Şults hesab edirdi ki, bir çox cinayətlər cinayətkarla qurban arasındakı şəxsi münasibətlər zəminində törədilir. Beləliklə, Hans Şultsun viktimoloji yanaşması qurbanla cinayətkar arasında yaxınlıq prinsipinə əsaslanırdı [1].

Alman tədqiqatçısı Q.Şnayder qeyd edir ki, «anadangəlmə qurban» və ya «təbiətən qurban» mövcud olmur. Ancaq insan tərəfindən mənimsənilmiş fiziki, psixi və sosial xüsusiyyətlər və əlamətlər (fiziki və digər çatışmazlıqlar, özünümüdafiə qabiliyyətinin olmaması və ya buna kifayət qədər hazır olmama, xüsusi xarici, pisixi və ya maddi cəlbedicilik) onu cinayətin qurbanına çevrilməyə istiqamətləndirə bilər. Əgər insan özünün bu yüksək viktimogenliyini başa düşərsə, bu təhlükəyə mü-

qavimət göstərə biləcək və onun öhdəsindən gələ biləcək müəyyən davranışı qavraya bilər.

Yapon tədqiqatçısı Miyadzava isə ümumi və xüsusi viktim davranışı fərqləndirirdi. Onun fikrincə, ümumi viktim davranış yaşdan, cinsdən, fəaliyyət növündən, sosial statusdan, xüsusi viktim davranış isə psixoloji planda qeyri-sabitlikdən, intellektin inkişafındakı gerilikdən, emosional qeyri-sabitlikdən asılıdır.

V.Vasilyev, O.Qlinko, İ.Mamayçuk viktim şəxsiyyətin belə bir psixoloji portretini təklif edir. Onların fikrincə, viktim şəxsiyyət emosional qeyri-sabitlik, yüksək əsəb, psixi gərginlik, yüksək həyəcanlılıq, konformluq, utancaqlıq, qorxaqlıq, insanlara etibar etmə, asanlıqla təsir altına düşmə və tənqidiliyin olmaması ilə xarakterizə olunur. Stress və konfliktli situasiyalarda viktim şəxsiyyət üçün konfliktin mənbəyində ilişib qalma, emosional diskomfortu zəiflətmək üçün "özünə qapanma" səciyyəvidir. Qurbanın psixoloji portretini D.Qleyzer tamamlayaraq, bura ailəsi ilə, xüsusilə anasıyla emosional kontaklarının olmaması, yüksək əxlaqi məsuliyyət və hədsiz dürüstlük kimi keyfiyyətləri də əlavə etmişdir [1].

O.Andronnikovanın təklif etdiyi viktim şəxsiyyətin psixoloji portreti faktor təhlilə əsaslanır. Tipik viktim şəxsiyyət üçün özünün və başqa insanların iztirablarını dözülməz kimi hiss etmək, intiharlarla manipulyasiya etmək, iradi sferada pozuntular, həyatda qarşılaşdığı maneələri aşmaq qabiliyyətinin olmaması, distim, oyanıq, demonstrativ, qeyri-sabit, affektiv aksentuasiya tiplərindən birinə malik olmaq, özünücəzalandırma motivinin üstünlük təşkil etməsi, yüksək depressivlik, yüksək əxlaqi dəyərlər, başqaları üçün özünü qurban verməyə hazırlıq səciyyəvidir.

Beləliklə də, viktim şəxsiyyət – emosional-qeyri sabit, həyəcanlı, konform, qorxaq, utancaq, hər kəsə hədsiz etibar edən, qeyri-tənqidi, başqasının təsiri altına asanlıqla düşən, yüksək məsuliyyətli, hədsiz dürüst və daimi qurban olmağa hazır olan şəxsdir.

Zərərçəkmiş şəxslər arasında passiv-tabe olan davranış tipinə daha çox rast gəlinir ki, bu hallarda onlar cinayətkarın bütün tələblərini müqavimətsiz, danışıqsız yerinə yetirirlər, göstərişlərinə əməl edirlər. Belə şəxslər üçün təlqinə qapılmağa meyillilik, itaətkarlıq, qətiyyətsizlik, cəsarətsizlik, sadəlövhlük və emosional cəhətdən dəyişkənlik kimi şəxsi xüsusiyyətlər xarakterikdir. Şəxsi xüsusiyyətlərin sadalanan kompleksi zərərçəkmiş şəxsin qarşılaşdığı kriminal şəraitdə psixi fəaliyyətin pozulması, proqnostik imkanların zəifləməsi, davranışın

passivliyi ilə müşayiət olunan emosional gərginlik vəziyyətinin inkişaf etməsini şərtləndirir [2].

Zərərçəkmiş şəxslərin yalançı-təhrikedici davranış tipi isə yüksək aktivlik, potensial cinayətkarla qarşılıqlı əlaqəyə meyiletmə, birlikdə alkoqollu içkilər və s. istifadə etməklə xarakterizə olunur. Lakin bu davranış psixi inkişafdan geri qalmanın müxtəlif formaları ilə şərtlənmiş olur.

Həmçinin zərərçəkmiş şəxslərin qeyri-məntiqi davranış tipinə də rast gəlinir ki, bu davranış tipi hərəkətlərin dəqiq istiqamətinin olmaması, ziddiyyətli olması, fikirlərin və əməllərin dəyişkənliyi ilə müşayiət olunur.

Zərərçəkmiş şəxslərin viktim davranışının bütün hallarının ortaq xüsusiyyəti onların cinayətkarla qarşılıqlı əlaqə prosesində davranışının ən əlverişli strategiyasını seçə bilməməsi və öz hərəkətlərinin iradi cəhətdən tənzimlənməsinin pozulmasıdır.

Zərərçəkmiş şəxsin onunla edilən zorakılıq hərəkətlərinin sosial mənasını və seksual yönümlü olmasını dərk etmək qabiliyyətinə malik olub-olmaması kriminal şəraitin xüsusiyyətləri ilə əlaqədar olan bir çox psixoloji faktorlardan asılıdır:

*Müayinə olunan zərərçəkmiş şəxsin psixi inkişaf səviyyəsi*. Zərərçəkmiş şəxsin əqli (intellektual) və şəxsi inkişafının yetərli səviyyədə olmaması müxtəlif mərhələlərdə dərk etmənin pozulmasına gətirib çıxarır. Yaşı ilə əlaqədar təbii olaraq psixi inkişafın aşağı səviyyədə olması hallarında (9-10 yaşlarına qədər olan azyaşlılar) hüquqi əhəmiyyətli hadisənin bioloji və sosial mahiyyətinin dərk olunmadan, yalnız xarici tərəflərinin dərk edilməsi müəyyən edilə bilər. 10-11 yaşından böyük azyaşlıların və yetkinlik yaşına çatmayan zərərçəkmiş şəxslərin idrak fəaliyyətinin fərdi strukturu və yetkinləşmə səviyyəsi əsaslı şəkildə tədqiq olunmalıdır. Tədqiqatın ən əhəmiyyətli obyekti müayinə olunan zərərçəkmiş şəxsin cinsi məsələlər sahəsindəki biliklərinin, o cümlədən seksual düşüncəsinin və özünü dərketmə səviyyəsinin öyrənilməsidir. Azyaşlı zərərçəkmiş şəxslərdə psixoseksual inkişafın yetərli səviyyədə formalaşmadığı hallarda, hətta intellektinin yüksək səviyyədə olması cinayətkar tərəfindən ona qarşı edilmiş hərəkətlərin xarakterini və mənasını tam dərk etmək qabiliyyətinə malik olması qənaətinə gəlməyə imkan vermir. Sosial və pedaqoji baxımsızlıqla əlaqədar olaraq psixi inkişafdan geri qalma da kriminal şəraiti tam və düzgün şəkildə dərk etmək qabiliyyətinə malik olmamasına səbəb ola bilər.

*Kriminal şəraitdə zərərçəkmiş şəxsin emosional vəziyyəti*. Zərərçəkmiş

şəxsin şərəf və ləyaqətinə qəsd edilməsinin xüsusi psixotravmatik xarakteri onlarda müxtəlif affektiv vəziyyətlər, o cümlədən qorxu affekti yarada bilər. Şüurun özünə məxsus şəkildə qismən daralması və davranışın iradi cəhətdən tam olaraq tənzimləməsinin pozulması affektiv vəziyyətlərin xarakterik xüsusiyyətləridir. Zərərçəkmiş şəxsdə qavrayışın fraqmentarlığı ilə müşayiət olunan şüurun qismən daralması baş vermiş hadisəni anlamaq, cinayətkarın davranışının və öz hərəkətlərinin mahiyyətini dərk etmək imkanlarını ani olaraq aşağı səviyyəyə endirməklə, zərərçəkmiş şəxsin onunla edilmiş hərəkətlərin xarakterini və mənasını dərk etmək qabiliyyətini itirməsinə səbəb olur [3].

Cinsi zorakılığa məruz qalmış zərərçəkmişlər çox vaxt hüquq mühafizə orqanlarına baş vermiş zorakılıq halı ilə bağlı müraciət etdikdə onlarla məhkəmə-psixoloji ekspertizasının keçirilməsi məqsədəmüvafiq hesab edilir. Cinsi zorakılığa məruz qalmış azyaşlının məhkəmə-psixoloji ekspertizasının rəyinə diqqət yetirək:

Müayinə olunan azyaşlı M. ekspertiza zamanı özü və ailəsi haqqında məlumat verərək bildirir ki, "…Haradan gəldiyimi bilmirəm. X. bilir. Bakıda yaşamıram. Harada yaşadığımı bilmirəm. Yaşımı, ad günümü bilmirəm. Yaydadır deyəsən. Məktəbə gedirəm. Neçənci sinifdə oxuduğumu bilmirəm. Heç birini bilmirəm. Oxumağı, saymağı bilmirəm..." Azyaşlı M. ekspertiza zamanı əvvəlcə baş vermiş hadisə barəsində informasiyaları vermək istəmir, bildirir ki, "…polisə danışdığımı deyə bilmərəm. Utanıram. Deyə bilmərəm axı. Anam dedi heç kimə demə". Həmçinin Müayinə olunan azyaşlı M. ekspertiza zamanı danışdıqca fikri dağılır, dedikləri yarımçıq qalır, əşyalarla oynayır, eyni sualı dəfələrlə təkrarladıqdan sonra cavab verir. M. ekspertiza zamanı ona verilən tapşırıqları yerinə yetirməyə səy göstərmir, diqqətini cəmləyə bilmir. Azyaşlı M. ekspert-psixoloqun suallarına cavab olaraq bildirir ki, "...Adını deyə bilərəm. Adı N-dır. Xalam oğludur. Mən məktəbdən gəlmişdim, o, evdə oturmuşdu. Arxadan elədi. Ağrıdı. Qabaqdan eləmədi. Polislərə danışdım. Polislər dedi N. eləyib? X. dedi hə. Birinci X-ya dedim. X. nənəmə dedi. Anama zəng elədilər. Anam dedi dəymə, gəlirəm. Anam polisə zəng elədi, polis gəldi, N-nı apardı. Biz N-la otaqda olanda A. bizi gördü. X-ya dedi. N. gəldi. Ona dedim "dəlisən?" Dedi "dəliyəm". Sonra A. gəldi, dedi "burada nə edirsən, M.?" N. da mənə dedi: "elədiyimizi desən səni öldürəcəm". N. eləyəndə mən

qışqırırdım. Hə, birinci dəfə edirdi. 3 dəfə eləməyib. 3 dəfə eləyib, amma 4 dəfə eləmişdi (fikri dağılır, karandaşlarla oynayır). A. dedi “dəymə”. N. soruşdu “nə edirsən?” Dedim “mahnıya qulaq asmaq istəyirəm”. Sonra A. N-a dedi: “Dəlisən, uşağa elə edirsən?” X. dedi ki, uşağa dəymə. N. qışqırdı ki, “sənə nə?” Dörd dəfə sürtüb... (fikri yarımçıq qalır). Bilmirəm neçə dəfə olub. N. polislərə dedi mən eləməmişəm, özü gəldi. Mən də polislərə dedim ki... Dörd dəfə olub, qabaqdan sürtüb, arxadan eləyib. Yox, beş dəfə olmayıb. İki dəfə? Bilmirəm. Heç özüm də bilmirəm. Nənəmlə yaşayıram”.

Qeyd etmək lazımdır ki, azyaşlı M. ifadəsi və psixoloji söhbət-müsahibə zamanı dedikləri arasında müəyyən ziddiyyət mövcuddur. Belə ki, o, ifadəsində təqsirləndirilən şəxs N.-nın onunla həm təbii, həm də qeyri-təbii yolla cinsi əlaqədə olduğunu bildirsə də, psixoloji söhbət-müsahibə zamanı N-nın yalnız qeyri-təbii yolla cinsi əlaqədə olduğunu bildirmiş, N.-nın ona qarşı neçə dəfə və hansı hüquqazidd hərəkətlər etməsi barədə suallara müxtəlif cavablar vermişdir.

2012-ci il təvəllüdlü M-nı məhkəmə-tibb ekspertizası rəyinin nəticəsinə əsasən qızlıq pərdəsinin tamlığı pozulmamışdır, anatomik quruluşu tamlığı pozulmadan onunla cinsi əlaqədə olmağa imkan vermir, arxa keçəcək dəliyi girəcəyində selikli qişada qansızmalar, böyük və kiçik cinsiyyət dodaqlarında qansızmalar, küt əşyanın/əşyaların, ola bilsin ereksiya vəziyyətində olan kişi cinsiyyət üzvünün təsirindən əmələ gəlmişdir, əmələ gəlmə müddətləri hadisənin baş vermə tarixinə uyğun gəlir.

Aparılmış istintaq zamanı təqsirləndirilən şəxs qismində dindirilmiş N. M. ilə öz istəyi ilə təbii və qeyri-təbii yolla cinsi əlaqədə olduğunu bildirmişdir.

Eksperimental tədqiqatın nəticələri göstərir ki, müayinə olunan azyaşlı M. pedaqoji baxımsızlığı ilə əlaqədar oxu və yazı vərdişlərinə yiyələnməməklə, sadə riyazi əməlləri yerinə yetirə bilmir. Onun əqli inkişafında psixi xəstəliklə əlaqədar olmayan gerilik əlamətləri müəyyən olunur (Raven testi). M. kifayət qədər lüğət ehtiyatına malikdir, lakin bəzən fikirlərini başqalarına adekvat olaraq çatdıra bilmir. Azyaşlı M. diqqətinin həcmi, paylanması (eyni vaxtda iki müxtəlif və daha artıq işi yerinə yetirmək bacarığı) və keçirilməsi (şüurlu surətdə bir obyektdən başqa obyektə və ya bir fəaliyyətdən başqa fəaliyyətə yönəlmə bacarığı) ilə bağlı çətinlik çəkir (Diqqətin keçirilməsi testi). Müayinə olunan azyaşlı M. fərdi-psixoloji xüsusiyyətlərinə görə ekstravertə (insanın psixi fəaliyyətinin daxili aləminə yönəl-

məsi) daha yaxın olmaqla, müvazinətsizdir. Emosional cəhətdən labilliyi (dəyişkənliyi) müəyyən olunur. M. əqli və psixi inkişafına görə ətraf aləmin predmet və hadisələrini qavrayır, lakin öz hərəkətlərini idarə etməkdə çətinlik çəkir. M-in sensor-perseptiv (duyğu və qavrayış) proseslərinin inkişafı normaldır. Azyaşlı M. hamının rəğbətini qazanmaq, ətrafdakılara xoş təəssürat bağışlamaq istəyir, kiçik diqqətsizlikdən əhval-ruhiyyəsi pozulur (Lüşer testi). M-in fərdi-psixoloji xüsusiyyətlərində başqalarının təsiri altında hərəkət etməyə meyillilik əlamətləri müəyyən olunur (psixoloji söhbət-müsahibə, Uşaq Appersseptiv testi). Onun fərdi-psixoloji xüsusiyyətlərində viktimlik (şəxsin müxtəlif şəraitlərin qurbanı olmağa meyilliliyi) əlamətləri üzə çıxır. Eksperimental-psixoloji tədqiqatın nəticələrinə əsasən belə qənaətə gəlmək olur ki, müayinə olunan azyaşlı M. kişi ilə qadın arasındakı seksual münasibətlər, intim həyata hansı yaş dövründən başlamağın cəmiyyətdə qəbul edilmiş normaları, cinsi əlaqənin nəticələri, uşaqların necə doğulması, hamiləlik və ondan qorunmanın yolları və s. haqqında kifayət qədər məlumatlara malik deyildir. Ekspert tədqiqatı göstərir ki, azyaşlı M. əqli inkişafına, yaş və fərdi-psixoloji xüsusiyyətlərinə görə seksual hərəkətlərin xarakterini və mahiyyətini dərk etmək və həmin hərəkətlərə qarşı müqavimət göstərmək qabiliyyətinə malik deyildir. Baş vermiş hadisə şəraitinin retrospektiv təhlili belə qənaətə gəlməyə imkan verir ki, azyaşlı M. psixi-emosional halında hadisədən əvvəl hər hansı əhəmiyyətli dəyişiklik baş verməmiş, hadisə zamanı və hadisədən sonra isə o, qorxu ilə müşayiət olunan emosional gərginlik halını ("...M. qışqırırdı, "nənə, bacı, ana" deyə səslənirdi... mən X-ya baş verənləri danışdım, M. qorxudan əsirdi... M. N-ya müqavimət göstərə bilmirdi, lakin bərk qışqıraraq ondan əl çəkməyini deyirdi..."; "...2021-ci il tarixdə təxminən saat 14 radələrində mən məktəbdən evə gəldim, evə girəndə mən yatdığım otaqda N-nın yüksək səslə mahnı qoşub oynadığını, M-nın A. ilə həmin otaqda sakitcə oturduğunu, M-nın qorxmuş, sarsılmış vəziyyətdə əsdiyini gördüm...") keçirmişdir.

## NƏTİCƏ

Nəticədə zərərçəkmiş şəxslərin viktim davranışının bütün hallarının ortaq xüsusiyyəti onların cinayətkarla qarşılıqlı əlaqə prosesində davranışının ən əlverişli strategiyasını seçə bilməməsi və öz hərəkətlərinin iradi cəhətdən tənzimlənməsinin pozulmasıdır.

Beləliklə, uşaqların müstəqil olaraq özlərini cinsi zorakılıqdan qorumaları üçün onlara aşağıda sadalanan vərdişləri aşılamaq lazımdır:

– cinsi zorakılığın nə olduğunu müəyyən etmək və bilmək;

– fiziki təmaslar zamanı öz bədənini idarə etməyi bacarmaq;
– kiməsə ona toxunmamalarını deməyi bacarmaq;
– tanımadığı insanların hər hansı təklifinə açıq-aydın “yox” deməyi bacarmaq;
– baş vermiş zorakılıq hadisəsi barədə böyüklərə məlumat verərsə, ona inanacaqlarından və onu qoruyacaqlarından əmin olmaq.

Zorakılığın qurbanı istənilən sosial, etnik və iqtisadi qrupa mənsub şəxs ola bilər. Xüsusilə vurğulamaq lazımdır ki, uşaqlara qarşı cinsi zorakılıq psixoloji fenomen deyil, cinayət əməlidir və cinayətkar mütləq şəkildə aşkarlanaraq cəzalandırılmalıdır [3].

**Ədəbiyyat:**


1. Bayramov Ə.S., Əliyev B.Ə. Hüquq psixologiyası. Bakı, 2012.
2. Şabanov S.F. Cinsi cinayətlərə dair işlər üzrə məhkəmə-psixoloji ekspertizasının təşkili və keçirilməsi. Metodik vəsait. Bakı, 2002.
3. Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası. Lanzarote, 2007
4. https://www.journalstudiesanthropology.ro/en/the-sexual-abuser-characteristics-and-risk-factors-literature-review/
5. Сафуанов Ф.С. Судебно-психологическая экспертиза: учебник для вузов. Москва, 2021

## PSYCHOLOGICAL CHARACTERISTICS OF SEXUAL VIOLENCE VICTIMS

***Narin Abilova***

**ABSTRACT**

The article analyzes the statistics of cases of sexual violence in some countries of the world. It has established that most of the victims of sexual violence are minors and teenagers. The article also contains information about the victimological characteristics of victims of sexual violence. In the end, the opinion of the forensic-psychological expertise of the minor who subjected to sexual violence analyzed and recommended information recorded.

Məqalə Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının iclasında müzakirə edilərək çapa məsləhət görülmüşdür (protokol №6).
Rəyçi R.H. Qədirova, psixologiya elmləri doktoru, professor.
Məqalə redaksiyaya 05 aprel 2022-ci ildə daxil olmuşdur.

UOT 159.944.4.075

# POSTTRAVMATİK STRESS POZUNTUSUNUN PSİXOLOJİ MƏZMUNUNDA EMOSİONAL İNTELLEKTİN ROLU

**Nəzrin Verdiyeva**

*Xəzər Universiteti*
*Məhsəti küçəsi 41, indeks: AZ1096*
*E-mail: psychologistnazrin@gmail.com*

***Açar sözlər:*** *posttravmatik stress, travma, psixoloji, stimulyator, emosional intellekt, emosiya*
***Keywords:*** *posttraumatic stress, trauma, psychological, stimulator, emotional intelligence, emotion*

## GİRİŞ

Son bir il ərzində ölkəmizdə yaşanan müharibə və pandemiya şəraitinin təsirləri hər bir insanda özünəməxsus formada iz qoymuşdur. Ümumiyyətlə, insanın travma ilə qarşılaşması üçün şəxsən müharibədə iştirak etməsi, yaxud xəstəliyə yoluxması gərəkmir. Travma bizim, ailələrimizin, dostlarımızın və qonşularımızın da başına gəlir. Xüsusilə son bir il ərzində müharibə iştirakçıları, onların yaxınları, həmçinin pandemiya səbəbindən həyatını itirmiş, xəstəliyə yoluxmuş insanlar və onların yaxınları psixoloji sarsıntı keçirmişdir. Onların bir çoxu hazırda Posttravmatik Stress Pozuntusundan əziyyət çəkirlər.

Amerikan Psixiatriya Birliyinə görə Post travmatik stress pozuntusu (PTSP) ağır fiziki zərərin meydana gəldiyi və ya təhdid edildiyi dəhşətli bir hadisəyə, yaxud sınaqlara məruz qaldıqdan sonra inkişaf edə biləcək bir təşviş pozuntusu olaraq təyin edilir. Vyetnam müharibəsi sonrası Vyetnam Qaziləri Çalışma Qrupunun cəhdləri nəticəsində müharibənin psixoloji reaksiyaları Amerikan Psixiatriya Birliyinin diqqətini çəkmiş və Post travmatik stress pozuntusu ilk dəfə 1980-ci ildə Ruhi Pozuntuların Diaqnostik və Statistik Əl Kitabına (DSM) daxil edilmiş və bu, onu yeni qəbul edilən psixiatrik xəstəliklərdən biri etmişdir.

DSM 5-ə görə travmatik hadisədən sonra PTSP inkişaf etmiş bir insanın yaşadığı simptomlar 4 qrupda

toplanır: qeyri-iradi travmatik hadisələri yenidən yaşamaq, hadisə ilə əlaqəli stimullardan qaçmaq, digər travma sonrası əhval-ruhiyyə və koqnitiv dəyişiklik, və həyəcan artımı və reaktivlik əlamətləri [2]. Bu gün PTSP-nin fərqli alt növləri olduğu ilə bağlı müzakirələr hələ də davam edir. Təklif olunan alt tiplər isə: 1 – Kompleks PTSP; 2 – PTSP-nin xaricləşdirilməsi və daxilləşdirilməsi; 3- Dissosiativ / Qeyri-dissosiativ PTSP [4, s. 550]. Aparılan araşdırmalarda fərdlərin az və ya çox stresli hadisələrlə qarşılaşdıqları, ancaq bu təcrübələrin normal şərtlərdə travmaya çevrildiyi görünmür. Hadisənin intensivliyinin baş verdiyi ailə mühitinin və uyğun olmayan ətraf mühiti vəziyyətlərinin travmatik proseslərə çevrilməsində təsirli olduğu bildirilir. Mübarizə, qaçmaq, donma və təslim olma davranışları fərdlərin travmaya ilk reaksiyaları kimi qəbul edilir [16].

Ümumiyyətlə, aparılmış tədqiqatlara görə əhalinin 39–90%-i ömründə ən az bir dəfə travmatik bir hadisə yaşayır. Travmatik hadisə yaşandıqdan sonra PTSP-nin müşahidə olunması ehtimalı cinslər üzrə differensiallaşmış formada qadınlarda 20,4%, kişilərdə 8,1% təşkil edir. Daha gənc meqalapolislərdə yaşayan cəmiyyətlərdə göstəricilər dəyişkənlik göstərilir, belə ki, qadınlarda 30,2%, kişilərdə isə 13% müəyyən edilmişdir. Müxtəlif travmalardan zərərçəkən insanlar arasında aparılmış çoxsaylı tədqiqatların nəticəsi olaraq psixotravmatik faktorların yayılma dərəcələri müəyyənləşdirilmişdir. Ən geniş yayılmış olaraq ağır somatik (9,4%) və fiziki təzyiq (8,3%). Daha sonra digər bir şəxsin ağır yaralanması, yaxud ölüm hadisəsinə şahid olmaq (7,1%) və ya yaxın şəxslərin ağır xəstəlikdən əziyyət çəkməsi, yaxud qəfil ölümü (5,7%), ən az yayılmış psixotravma kimi seksual zorakılıq (2%) aid edilir [10].

Əsasən, uşaqlıq dövründə travmatik hadisə yaşamaq və genetik olaraq psixiatrik xəstəliklərə meyilli olmaq PTSP yaranmasında əsas amillərdən hesab olunur. Xüsusilə də sərhəd (borderline), asılı, antisosial və paranoid tipli şəxsiyyət xüsusiyyətlərinin təzahürü pozuntuya meyillilikdə mühüm rol oynayır. Sosial aspektdən baxıldıqda isə yetərsiz hesab olunan ailə və dost çevrəsinin dar olması, yaxud yaxın dostların dəstəyinin az olması, bununla birlikdə, son zamanlarda stresli vəziyyətlərin çox olması və həddindən artıq alkoqol istifadəsi PTSP inkişafına təkan verən amillər olaraq bilinirlər. Cinsi differensasiyalaşma ilə əlaqəli aparılmış tədqiqatlara əsasən, qadın cinsinin nümayəndələri və ətrafdan kontrol edilmə qavrayışının basqın olması

da pozuntunun şiddətlənməsinə təsir göstərir [12].

Travma anlayışı üç əsas başlıqla təsnif edilir:

1. İnsanın rolu ilə qəza nəticəsində yaranmış – buraya aiddir: gəmi, qatar, avtomobil və iş qəzaları, yanğınlar və s.
2. İnsanın rolu ilə birbaşa bilərək yaranmış – buraya aiddir: təcavüz, məhbusluq, müharibə, terror, işgəncə və s.
3. Təbii fəlakətlər – buraya aiddir: meşə yanğını, sel, uçqun, zəlzələ və s. [15]

Posttravmatik stress pozuntusu adıçəkilən hər hansı bir hadisə nəticəsində fərdin emosional vəziyyətinin ani dəyişməsi ilə müşahidə olunur. Travmatik hadisə sonrası yaşanan əlamətlərin bütün şəxslərdə müşahidə olunması mütləq hesab edilmir.

Posttravmatik stress pozuntusu zamanı müşahidə edilə biləcək əlamətlər 4 qrup altında birləşdirilir:

- Travmatik hadisə ilə əlaqəli situasiyalardan uzaqlaşmağa çalışmaq – Posttravmatik stress pozuntusundan əziyyət çəkən şəxslərdə yaşanan hadisə ilə əlaqədar xatırladıcı detallardan qaçınma müşahidə edilə bilər. Nümunə olaraq, zəlzələdən bina altından xilas olmuş şəxs sonrakı həyat fəaliyyətində qapalı məkanlarda olmaqdan qaçınmışdır. Bundan əlavə, travmatik hadisə ilə əlaqəli xatirələri qısa epizodlar xatırlayan şəxslər həmin hadisəni düşünməkdən qaça bilərlər. Lakin çox zaman bu xatırladıcı məqamlardan qaçmağa çalışan şəxslər uğursuzluq yaşayaraq yenidən hadisəni yaşamış hissinə geri dönə bilirlər.
- Həyəcan hissinin və həssaslığın artması – buraya impulsiv, aqressiv və ya qəzəbli davranışlar, özünü idarəetməni itirmək, ətrafa və ya özünə zərərverici davranışlar, diqqətin və yaddaşın davamlılığının azalması, yuxunun pozulması və laqeydlik kimi əlamətlər aid edilir.
- Travma yaradan hadisəyə təkrar məruz qalmaq – Posttravmatik stress pozuntusundan əziyyət çəkən şəxslərdə travmatik hadisə ilə əlaqəli təkrarlanan xatirələri və kabusları ola bilər. Şəxs həmin hadisə ilə əlaqəli stimulyatorlara məruz qala bilər. Nümunə olaraq, travmatik hadisə yaşanarkən eşidilən hər hansı səs yaxud məkan. Zərərçəkən bütün bu vəziyyətlərdən narahat olduğu üçün kəskin formada fizioloji reaksiyalar göstərə bilər.

Travmadan sonra müşahidə olunan idrak və digər əhval-ruhiyyə dəyişiklikləri – buraya müsbət duyğuları hiss edə bilməmək, hadisə ilə

əlaqədar digər insanları və özünü günahlandırma, özünəqapanma, sosial təcrid, yaşanan hadisənin müxtəlif vacib məqamlarını xatırlaya bilməmək, əvvəl zövq alınan sahələrə qarşı marağın itməsi aid edilir [3, s. 316].

Travmatik hadisənin şiddətindən əlavə, insanın travmanı necə qiymətləndirdiyinə dair subyektiv mühakimə qabiliyyəti travmanın psixoloji təsirləri baxımından böyük əhəmiyyətə malikdir. Başqa sözlə, oxşar travmatik hadisələrin fərqli insanlar üzərində fərqli təsirləri ola bilər. Şəxsiyyətə fərdlərin anadangəlmə xüsusiyyətləri və cəmiyyətdə sonrakı həyatında qazandığı keyfiyyətlər daxildir. Yaradılışdan gələn xüsusiyyətlər bioloji əsaslıdır və dəyişdirilməsi çətindir [1, s. 87].

Emosiyalar müxtəlif psixoloqlar və sosioloqlar tərəfindən ümumi bir daxili hiss kimi qəbul edilmişdir, çünki onlar emosiyaların çox vaxt insanların fəaliyyətinə və normal həyat tərzinə əsaslanaraq fərdlərin yanaşmasını, reaksiyalarını və hisslərini dəyişib təsir edə biləcəyini düşünürlər. Bu halda, PTSP-nin bu faktdan kənarda qalmadığını bildirmək mümkündür [11, s. 162]. Əlavə olaraq, emosiyaları və onların insanların sosial və şəxsi həyatındakı rolunu müəyyən etmək və daha çox anlayışlı olmaq vacib bir fakt hesab olunur. Bütün bunlar nəzərə alınaraq PTSP-nin təzahüründə emosional zəkanın rolunu araşdırmaq mühüm bir istiqamət kimi elmi araşdırmalara əsas ola bilər.

Emosional intellekt (EI), fərdi və sosial həyatda özünün və başqalarının emosiyalarını ayırd etmək, qiymətləndirmək və yenidən nəzərdən keçirmək qabiliyyəti kimi bilinən bir anlayışdır [6, s. 5]. Göründüyü kimi, emosional intellekt 4 əsas amildən ibarətdir:

1) emosiyaların qavranılması, 2) öz duyğularını idarə etmək, 3) başqalarının emosiyalarını idarə etmək və 4) fərdlərin şəxsi və sosial həyatda hisslərini necə göstərdiyini izah edən emosiyalardan faydalanmaq [13, s. 1116.]. Emosional zəka fərdlərin hiss və yanaşmalarında böyük rol oynayan mühüm bir faktordur. Həmçinin bu, həqiqi hissləri tanımaq və həyat fəaliyyəti ilə əlaqəli dəqiq qərarlar vermək üçün istifadə edilən bir zəka növüdür. Dəqiq olaraq, bu faktor müxtəlif vəziyyətlərdə əhval-ruhiyyəni və məqsədləri idarə etməklə bərabər, fərdlər arasında ünsiyyətdə sadalananların nəzarətini həyata keçirir [5, s. 2991].

Emosional intellekt və onun amilləri şəxslərin bacarıq və qabiliyyətlərinə istinad edir və müsbət motivator kimi vacib bir rol oynayır. Əslində, emosional intellekt fərdləri özlərinə və sosial həyatlarına qarşı daha çox

diqqət yetirməyə sövq edir. Bundan əlavə, emosional zəkanın ətraflı bilinməsi mənfi hisslərin və stressin aşağı səviyyəsini azaltmağa kömək edəcək. Bu o deməkdir ki, PTSP olan fərdlər öz hisslərini və davranışlarını mükəmməl formada tanısalar, psixopatologiya, yaxud psixi pozuntuların öhdəsindən gələ bilərlər [9, s. 188.].

Bütün mövcud elmi ədəbiyyatlar arasında [14] emosional intellekt və PTSP arasındakı əlaqəyə dair yalnız bir nəşr edilmiş tədqiqat var. Tədqiqat emosional intellektin fərdlərin travmatik təcrübələrə necə reaksiya verdiyini təxmin edə bilib-bilməyəcəyini araşdırır. Emosional zəkanın ölçülməsi üçün Nottingem Emosional İntellekt Şkalası (NEIS) tətbiq edən tədqiqatda 414 tələbədən ibarət təsadüfi bir qrup iştirak etmişdir [7, s. 791]. NEIS, emosional zəkanın yalnız qlobal xalını qiymətləndirə bilən tək faktorlu şkaladır. Respondentlərin seçilməsi üçün seçim meyarlarına travmatik hadisənin yaşanması daxil deyildi, baxmayaraq ki, 298 respondent belə bir təcrübələrinin olduğunu bildirmişdir. Tədqiqat EI və travma arasında əlaqəni nümayiş etdirdi. Başqa sözlə, emosional zəka və travma ilə əlaqəli simptomlar arasında aydın bir korrelasiya var idi. Belə ki, daha yüksək EI olanlar daha az simptomlara sahib idilər [8].

## NƏTİCƏ

Bu araşdırmanın məqsədi Posttravmatik Stress Pozuntusunun diaqnostikası sahəsində ölkəmizdə bu problemdən əziyyət çəkən insanların müalicə mərhələlərinin və diaqnostikasının düzgün planlaşması və düzgün istiqamətli inkişafı üçün töhfə verməkdir. Bütün əldə olunan məlumatlara əsasən, Posttravmatik Stress Pozuntusunun gedişatında, inkişafında və müalicəsində emosional intellektin danılmaz bir rolu vardır. Mütəxəssis və zərərçəkənin işinin daha sürətli və məqsədəuyğun irəliləməsinə təkan olaraq diaqnostika və müalicə zamanı bəzi məqamlara diqqət yetirilməsi böyük əhəmiyyət kəsb edir. Bu problemin həlli istiqamətində emosional intellekt faktorunun nəzərə alınması ilə aparılan diaqnostika və müşahidə, həmçinin müalicə prosesində daha dəqiq müalicə planları hazırlanaraq zərərçəkənlərin və yaxınlarının psixoloji rifahı üçün mühüm addımlar atılması mümkündür.

***Ədəbiyyat:***


1. Əliyev R.İ. Psixologiya. Bakı: Gamma Servis Mətbəəsi: 2003; 87-88 s.
2. American Psychiatric Association (APA). Diagnostic and statistical manual of mental disorders (5th edition.). Arlington, VA: Author, 2013.
3. Butcher J.N., & Hooley M.J. Anormal Psikoloji. İstanbul: Nobel yayınıcılık: 2013; 316 s.
4. Dalenberg, C.J., Brand, B.L., Gleaves, D.H., Dorahy, M.J., Loewenstein, R.J., Cardeña, E., Frewen, P.A., Carlson, E. B., & Spiegel, D. Evaluation of the evidence for the trauma and fantasy models of dissociation. Psychological Bulletin. 2012; 138: 550-588 s.
5. Darabi, M. (2012). Emotional intelligence a literature review. Journal of Applied Science Research, 2012; 8(6): 2991-2997 s.
6. Harms, P. D., & Credé, M. (2010). Emotional intelligence and transformational and transactional leadership: A meta-analysis. Journal of Leadership & Organizational Studies, 2010; 17: 5-17 s.
7. Hunt, N., & Evans D., Predicting Traumatic Stress Using Emotional Intelligence, Behavior Research and Therapy, 2004; 42: 791–798 s.
8. Martskvishvili, K. Relationship Between Emotional Intelligence And Post-Traumatic Stress, 2015.
9. Mehrad, A. Post-Traumatic Stress Disorder (PTSD) Effect of Coronavirus (COVID-19) Pandemic and Role of Emotional Intelligence. Journal of Social Science Research, 2020; 20: 188 s.
10. Nutt, D., & Ballenger, J. Anxiety disorders: Generalized Anxiety Disorder, Obsessive Compulsive Disorder and Post-Traumatic stress disorder. Oxford: Blackwell Publishing, 2005.
11. Power, M. J., & Fyvie, C. The role of emotion in PTSD: two preliminary studies. Behav Cogn Psychother. 2013; 41(2): 162-72 s.
12. Sadock, B.J., & Kaplan, H.I. Sadock VA. Kaplan & Sadock's synopsis of psychiatry: behavioral sciences/clinical psychiatry. 9th ed. Philadelphia: Lippincott Williams & Wilkins, 2003.
13. Schutte, N. S., & Malouff, J. M. Emotional intelligence mediates the relationship between mindfulness and subjective well-being. Journal of Personality and Individual Differences, 2011; 50(7): 1116-1119 s.
14. Stough C., Saklofske D. H., & Parker J.D., Assessing Emotional

Intelligence: Theory, Research and Applications, The Springer Series on Human Exceptionality, 2009.
15. Amerikan Psikiyatri Birliği. Mental Bozuklukların Tanısal ve Sayımsal El Kitabı, Dördüncü Baskı, Yeniden gözden geçirilmiş tam metin (DSM-IVTR). (Çev. Ed. E. Köroğlu). Ankara: Hekimler Yayın Birliği: 2007.
16. Öztürk, E. Travma ve dissosiyasyon: dissosiyatif kimlik bozukluğunun psikoterapisi ve aile dinamikleri.1. Baskı. İstanbul: Nobel Tıp Kitabevleri, 2017.

## THE ROLE OF EMOTIONAL INTELLIGENCE IN THE PSYCHOLOGICAL CONTENT OF POSTTRAUMATIC STRESS DISORDER

***Nazrin Verdiyeva***

**ABSTRACT**

The article discusses the phenomenology, symptoms, causes and general features of posttraumatic stress disorder, as well as the role of emotional intelligence in its manifestation. Posttraumatic stress occurs after a disturbed psychological trauma, and it is considered to be a mental disorder that results in fear, danger, helplessness, or panic attacks in a person. Long after a traumatic event, even the minimal sign of danger can cause the brain to secrete high levels of stress hormones. This situation, in turn, can provide basis for unpleasant feelings, physical symptoms and aggressive behaviors. Emotional intelligence is the ability to understand, use, and manage your own emotions in positive ways to relieve stress, communicate effectively, empathize with others, overcome challenges and defuse conflict. Given that posttraumatic stress disorder is characterized by aspects of emotional dysfunction, the role of emotional intelligence in the course and treatment of the disorder is important.

Rəyçi R.V.Cabbarov, psixologiya elmləri doktoru, dosent.
Məqalə redaksiyaya 11 aprel 2022-ci ildə daxil olmuşdur.

*Qeyd üçün*

*Qeyd üçün*

*Qeyd üçün*

**R E D A K S İ Y A   H E Y Ə T İ**

**Baş redaktor:**

Əliyev B.H. *(AMEA-nın müxbir üzvü, psixol.e.d., prof., Azərbaycan)*

**Baş redaktorun müavini:**

Seyidov S.İ. *(psixol.e.d., prof., Azərbaycan)*

**Məsul katib:**

Mustafayev M.H. *(psixol. üzrə fəls. d., Azərbaycan)*

**REDAKSİYA ŞURASI**

Əliyeva K.R. *(psixol. e.d., prof., Azərbaycan)*
Əlizadə H.Ə. *(ped. e.d., prof., Azərbaycan)*
Əliyev R.İ. *(psixol. e.d., prof., Azərbaycan)*
Baxşəliyev Ə.T. *(psixol. e.d., prof., Azərbaycan)*
Qurbanova G.K. *(psixol. e.d., prof., Azərbaycan)*
Mehmet Engin Deniz *(psixol. e.d., prof., Türkiyə)*
Turan Akbaş *(psixol. e.d., prof., Türkiyə)*
Xudyakov A.İ. *(psixol.e.d., prof., Rusiya)*
Qədirova R.H. *(psixol. e.d., prof., Azərbaycan)*
Şəfiyeva E.İ. *(psixol. e.d., prof., Azərbaycan)*
İbrahimbəyova R.F. *(psixol. üzrə fəls. d., prof., Azərbaycan)*
Cabbarov R.V. *(psixol. e.d., dos., Azərbaycan)*

Redaksiyanın ünvanı: AZ 1069, Bakı şəhəri, Z.Bünyadov 38, II mərtəbə.
Telefon: 5629961
Lisenziya: AV№022487. Qeydiyyat nömrəsi V 287, 19 aprel 1999-cu il.
Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi
www: psixologiyajurnali.az.
E-mail: psixologiyajurnali@gmail.com; psixologiyajurnal.az@bk.ru

Formatı 70x100 1/16. Fiziki çap vərəqi: 4.0.
Tiraj: 300. Sifariş 272.
Qiyməti müqavilə ilə.
"Təhsil" nəşriyyatının mətbəəsində çap edilmişdir.

**© "Təhsil", 2022**